QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 219 (5939) **27 noyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verib"

*Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak edib*




Səh 2

7

Əli Həsənov: "Həm Yerevandakı abidə, həm də Armavirdəki xatirə lövhəsi sökülməlidir"



9

NATO Marşalı: "Azərbaycan Alyansın etibarlı tərəfdaşıdır"



7

Rasim Quliyev: "Əli İnsanovu ətrafındakılarla bir maraq birləşdirir, o da qisasçılıqdır"



# “Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verib”

## *Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak edib*

***Noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Dövlətimizin başçısı mərasimdə nitq söylədi. Prezident İlham Əliyev öz nitqində qeyd edib ki, Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verib:***




“Hörmətli xanımlar və cənablar. Hörmətli müəllimlər, tələbələr. Mən sizi və bütün Azərbaycan xalqını Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm. Universitetin bütün kollektivinə yeni uğurlar arzulayıram.

Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə təsis edilmişdir. Bu qərar bir daha onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərmişdir. Xalq Cümhuriyyətinin qurucuları yaxşı anlayırdılar ki, savadsız cəmiyyətdə güclü müstəqil dövlət qurmaq mümkün deyil. Baxmayaraq ki, gənc respublika böyük çətinliklərlə üzləşmişdi və ölkə ərazisinə tam nəzarət edə bilmirdi, bu qərar bir daha respublikanın niyyətini, qurucuların siyasətini əks etdirir. Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr vermişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Bu, bir daha onu göstərir ki, müstəqilliyi əldə etmək onu qoruyub saxlamaqdan daha asandır. Müstəqilliyi qorumaq, onu müdafiə etmək, onu gücləndirmək böyük siyasi biliklər, böyük cəsarət tələb edir.

### “Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin faşist mahiyyəti dəyişmir”



Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən sonra Bakı Dövlət Universiteti yeni ictimai-siyasi dövrdə fəaliyyətini davam etdirirdi. Yüz il ərzində universitetin 200 minə yaxın məzunu Azərbaycanın müxtəlif sahələrində öz bilik və bacarıqlarını nümayiş etdirmişdir. Məzunlar arasından görkəmli şəxslər, alimlər, ictimai xadimlər, siyasətçilər, mütəxəssislər çıxmışdır. Onların bir çoxu Azərbaycanın hərtərəfli inkişafına öz dəyərli töhfəsini vermişdir.

Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu idi. Heydər Əliyev həm sovet dövründə, həm müstəqilliyin ərəfəsində, həm də müstəqillik dövründə xalq qarşısında, dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir. Məhz onun rəhbərliyi ilə sovet dövründə Azərbaycan müttəfiq respublikalar arasında ən geridə qalmış yerdən ən qabaqcıl yerlərə qədər yüksəldi. O vaxt, - gənclər təbii ki, bunu bilmirlər, - respublikaları fərqləndirən bir neçə əlamət var idi. Onların arasında keçici “Qırmızı bayraq” var idi. Yəni, “Qırmızı bayraq” ilə o respublikalar təltif olunurdu ki, orada həm sənayedə, həm kənd təsərrüfatında, həm də bütün digər sahələrdə böyük uğurlar var idi. Bax, Heydər Əliyevin dövründə 13 il ərzində Azərbaycan hər il bu “Qırmızı bayrağı” alırdı. Bu, bir daha onu təsdiq edirdi ki, onun rəhbərliyi ilə Azərbaycan böyük uğurlu yol keçmişdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayanda biz ən sonuncu yerlərdə idik. O, Azərbaycanı böyük inkişafa doğru apararaq ən qabaqcıl yerlərə qədər ucaltdı. Əgər sovet dövründə cəmi iki respublika var idi ki, onlar donor kimi fəaliyyət göstərirdi, onlardan biri Azərbaycan idi.

Heydər Əliyev təhsil sahəsinə çox böyük diqqət göstərirdi, hər il böyük müşavirələr keçirirdi. Eyni zamanda, Azərbaycan gənclərinin Sovet İttifaqının aparıcı ali məktəblərində oxuması üçün böyük səylər göstərmişdi və bu, unikal xarakter daşıyırdı. Çünki sovet məkanında buna oxşar təcrübə yox idi. Hər il təqribən 800-ə yaxın Azərbaycan gənci Bakıda imtahanlar verməklə Sovet İttifaqının Moskva, Leninqrad və digər böyük şəhərlərindəki aparıcı ali məktəblərinə ezam edilmişdir. Beləliklə, Azərbaycanın gələcəyi üçün güclü kadr potensialı yaradılırdı. Məhz bu kadr potensialı, o cümlədən bu gün ölkəmizin, müstəqil dövlətin uğurlu inkişafını təmin edir. Həmçinin o illərdə yüksək təhsil almış kadrlar bu gün Azərbaycanı ləyaqətlə təmsil edirlər.

**Ardı Səh. 3**

# “Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verib”

*Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak edib*

Əvvəli Səh. 2

Heydər Əliyevin qərarı ilə 1970-ci illərin əvvəllərində Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılmışdır. Bu da Ulu Öndərin uzaqgörənliyini göstərir. Çünki o vaxt azərbaycanlılar sovet ordusunda az təmsil olunurdu. Heydər Əliyev çox istəyirdi ki, Azərbaycan hərbçiləri yetişsin. Sanki bilirdi ki, nə vaxtsa Azərbaycan müstəqil dövlət olacaq və bu kadrlar bizə lazım olacaq.

Bir sözlə, təhsilə, bütün başqa sahələrə göstərilən diqqət, onun fədakar əməyi və Azərbaycan xalqının müdrikliyi imkan verdi ki, Heydər Əliyev Azərbaycanın ən ağır günlərində öz xilaskarlıq missiyasını icra etsin. Əgər 1970-ci illərdə onun gördüyü işlər xalq tərəfindən rəğbətlə və böyük məhəbbətlə qarşılanmasaydı, - 1990-cı illərin əvvəllərində Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdı, - Azərbaycan xalqı ona müraciət etməzdi. Məhz o illər ərzində gördüyü işlər Azərbaycan xalqının qəlbində ona inam hissini saxlayırdı.

Ölkəmizin müstəqilliyə qədərki dövründə də, müstəqillik dövründə də Heydər Əliyev daim xalqın yanında idi və xalqa xidmət etmək onun başlıca missiyası idi. 20 Yanvar faciəsindən sonra o, səsini ucaltdı, Moskvadakı daimi nümayəndəliyə gəlib, orada mətbuat konfransı keçirib, sovet rəhbərliyini, Kommunist Partiyasının rəhbərliyini ittiham etmişdir, bu qanlı faciəni pisləmişdir və bütün dünyaya bu həqiqəti çatdırmışdır. Çünki onun böyük nüfuzu var idi və onun dilindən səslənən sözlər, həqiqətlər dünyanın bütün yerlərində əks-səda vermişdi. Halbuki o vaxt Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağılacaq. O cəsarətli addım Heydər Əliyevin xalqa nə qədər bağlı olduğunu göstərir.

Ondan sonra uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarını tərk etdi. O da böyük təhlükə idi. Onu da bildirməliyəm ki, 20 Yanvar faciəsindən sonra Azərbaycan rəhbərliyində təmsil olunanlar susmuşdular, ağızlarına su alıb susmuşdular, biri də bu qanlı faciəni qınamadı, biri də öz səsini ucaltmadı. Bu, bir daha göstərdi ki, ovaxtkı rəhbərlik antimilli rəhbərlik idi. O hakimiyyəti əvəzləyən, qanunsuz yollarla hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü bir ildən çox hakimiyyətdə idi. Bir il ərzində 20 Yanvar faciəsinə siyasi və hüquqi qiymət vermədi. Hakimiyyət onların əlində idi. Nə üçün bunu etmədilər? Nə üçün xalqımızın bu faciəsinə, bu yarasına biganə qalmışdılar? Bu, həqiqətdir. 20 Yanvar faciəsinə, Azərbaycan xalqına qarşı törədilmiş bu cinayətə məhz Heydər Əliyev hakimiyyətə qayıdandan sonra siyasi-hüquqi qiymət vermişdir və bu, tarixdir. Bu, bir daha Ulu Öndərin xalqa nə qədər bağlı olduğunu göstərir.

Müstəqilliyə gedən yol da Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun qərarı ilə Naxçıvan Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi təsis olundu və buna oxşar digər qərarlar qəbul edildi. O vaxt Sovet İttifaqının saxlanmasına dair referendum keçirilmişdir və Azərbaycan üzrə referendum saxtalaşdırılmışdır. Guya ki, Azərbaycan əhalisi Sovet İttifaqının saxlanmasına səs vermişdir. Halbuki bu, belə deyildi. Naxçıvanda referendum keçirilmədi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözləri çıxarıldı. Bu da müstəqilliyə aparan yol idi. Azərbaycanda siyasi sistemi formalaşdıran Yeni Azərbaycan Partiyası təsis edildi. Çünki partiya yaranana qədər Azərbaycanda siyasi sistem, partiyalar yox idi. Ayrı-ayrı silahlı dəstələr öz adlarını partiya qoymuşdular və bir-biri ilə mübarizə aparırdılar, torpaqlar isə işğal altına düşürdü. Əgər Heydər Əliyev müstəqilliyin ilk illərindən Azərbaycanda rəhbər olsaydı, heç vaxt torpağımız işğal altına düşməzdi. Azərbaycanın Heydər Əliyevə qədərki bütün rəhbərləri fərarilik etmiş, xalqı və ölkəni ağır vəziyyətdə tərk etmiş, qaçmışlar, ikisi Moskvaya, biri Kələkiyə. Bu, fərarilikdir, bu, satqınlıqdır, bu, xəyanətdir. Liderin vəzifəsidir dövləti qorumaq, liderin vəzifəsidir xalqla bir yerdə olmaq. Ən ağır, ən çətin anlarda lider qabaqda olmalıdır, Heydər Əliyev kimi. O, hər birimiz üçün nümunədir. Burada əyləşən gənclər də bu tarixi bilməlidirlər. Mən dəfələrlə bunu demişəm. Biz - bu tarixi yaşayan insanlar, əlbəttə ki, heç vaxt bunu unutmayacağıq. Bugünkü uğurlu inkişafımızı hər zaman qiymətləndirəcəyik. Gənclər bunu görməyiblər. Onlara elə gəlir ki, həmişə belə olub. Onlara elə gəlir ki, Azərbaycan həmişə belə çiçəklənən, firavan dövlət olub. Belə deyildi. Biz o günləri yaxşı xatırlayırıq. Xalq Cəbhəsi-Müsavat cütlüyünün xəyanətkar hakimiyyəti dövründə on minlərlə insan saatlarla çörək növbəsində dayanırdı. Əli silahlı quldurlar meydan oxuyurdular, şəhərlərimizdə insanları incidirdilər, oğurlayırdılar, işgəncələr verirdilər, jurnalistləri döyürdülər. Məhz Xalq Cəbhəsi-Müsavat hakimiyyəti - özünü demokrat adlandıran bu ünsürlər Azərbaycanda senzura tətbiq etmişdilər. Heydər Əliyev hakimiyyətə gələndən sonra senzuranı ləğv etdi. Gənclər bu tarixi bilməlidirlər. Müəllimlər bu tarixi onlara çatdırmalıdırlar ki, həm həqiqəti bilsinlər, həm də Azərbaycan gələcəkdə heç vaxt bu ağır vəziyyətə düşməsin. Azərbaycan heç vaxt gözü kölgəli olmasın, heç vaxt başqasının iradəsindən asılı olmasın, heç vaxt başqa dövlətlər qarşısında baş əyməsin. AXC-Müsavat cütlüyü dövründə prezidentin kabinetinin qapısını xarici səfirlər ayaqları ilə açırdılar, ona göstərişlər verirdilər. O da məzlum bir adam kimi o göstərişləri yerinə yetirirdi. Ona görə belə günə düşdü. Məgər bizi bizdən çox sevən, istəyən varmı? Bu gün bəzi hallarda bəzi xarici dairələrdən eşidirik ki, biz Azərbaycana kömək etmək istəyirik, biz Azərbaycanı belə inkişaf etmiş ölkə kimi görmək istəyirik. Hamısı yalandır.









**“Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər?”**

Ardı Səh. 4

# "Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verib"

## *Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak edib*

Əvvəli Səh. 3

Mən tam səmimiyyətlə deyirəm. Bizim ən ağır günlərimizdə xəzinə boş idi, Xalq Cəbhəsi-Müsavat cütlüyü talamışdı, ləl-cavahirat fondunu talamışdı. İnsanlar öz axırıncı qızıl əşyalarını aparırdılar ki, ordumuza kömək etsinlər. O vaxt prezident, dövlət katibi, baş nazir o ləl-cavahirat fondunu talan etmişlər. İndi onun izi-tozu da qalmayıb. O vaxt xəzinə boş olanda, biz kreditlər üçün müraciət edəndə heç kim bizə kredit vermirdi. Yaxşı, əgər siz Azərbaycanı bu qədər sevirsinizsə, nə üçün o vaxt bizə kömək etməmisiniz?! Nə üçün ağır vəziyyətdə olan ölkəyə kömək etməmisiniz?! İndi sıra ilə düzülüblər bizə kredit vermək istəyənlər. Biz almırıq. Biz özümüz kredit veririk. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada doqquzuncu yerdəyik. İndi istənilən məbləğdə - bax, sabah 10 milyard dollar lazım olsa, alarıq. Almırıq, qoymuram. Borcu yenə də endirirəm. Ona görə kimsə deyəndə ki, biz Azərbaycanın yaxşılığını istəyirik, inanmayın, gənclər də inanmasınlar. Bizdən çox bizi istəyən heç vaxt olmayıb və olmayacaq.

Xalqımızın tarixi faciələrlə doludur. Biz nəyə görə uzun illər, əsrlərboyu müstəmləkə kimi yaşamışıq? Nəyə görə başqa dövlətlərin tərkibində yaşamışıq? Nəyə görə bizim dövlətçiliyimizin tarixi çox məhduddur? O vaxt hətta müstəqil dövlətlər olanda onların da imkanları məhdud idi. Elə götürək Azərbaycan Xalq Cümhuriyyətini, ölkəni idarə edə bilmirdi. Xarici hərbi missiyaların rəhbərləri qərarlar qəbul edirdilər. Hətta bizim o vaxt qəbul edilmiş birinci dövlət bayrağımız xarici hərbi missioner tərəfindən dəyişdirildi. Ultimatum qoyuldu, tarixçilər bunu yaxşı bilirlər. Müstəqil dövlətin rəhbərliyinə ultimatum qoyuldu ki, siz bu bayrağı dəyişdirməlisiniz və dəyişdirdilər. Ondan sonra indiki üçrəngli bayraq təsis edildi. Ona görə hətta o dövrlərdə müstəqillik yarımçıq idi, natamam idi.

Bu gün əsl müstəqillik dövrüdür. Çünki bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz. Nə qədər çalışsalar, nə qədər əlləşsələr, nə qədər yalan-böhtan yaysalar yapışmır bizə. Çünki xalq bizi dəstəkləyir və sonuncu rəy sorğuları onu göstərir. Əhalinin mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir. Əhalinin mütləq əksəriyyəti bizə alternativ görmür və kim ola bilər bu alternativ? Hətta havadarları artıq onlardan üz döndərmişlər. Biz bunu dəqiq bilirik. Mən indi bu auditoriyada bəzi operativ məlumatları da bölüşə bilərəm sizinlə, Azərbaycan xalqı ilə. İndi anti-Azərbaycan dairələr, xaricdəki dairələr artıq açıq deyirlər ki, bizdə ənənəvi müxalifət yoxdur, ayrı-ayrı satqın dəstələr var ki, onların da kitabı bağlanıb, onlara ümid bəsləmək olmaz. Ona görə onlara pul təminatı da azalıbdır, ona görə çabalayırlar.




> "Xalq Cəbhəsi-Müsavat cütlüyünün xəyanətkar hakimiyyəti dövründə on minlərlə insan saatlarla çörək növbəsində dayanırdı. Əli silahlı quldurlar meydan oxuyurdular, şəhərlərimizdə insanları incidirdilər, oğurlayırdılar, işgəncələr verirdilər, jurnalistləri döyürdülər"

Əsas hədəf gənclər olmalıdır. Onlar gəncləri əsas hədəf seçiblər və gəncləri yoldan çıxarmaq istəyirlər, onların beyinlərini zəhərləmək istəyirlər, onları xalqa qarşı, Vətənə qarşı, ənənəvi dəyərlərə qarşı qaldırmaq istəyirlər. Alınmır və alınmayacaq. Çünki Azərbaycan gəncləri vətənpərvərdir, Vətəni sevəndirlər, Vətənə bağlıdırlar. Ancaq o niyyət var və biz bunu bilməliyik, müəllimlər də bilməlidirlər. Müəllimlər tələbələrə nəinki biliklər verməlidirlər, onları tərbiyə də etməlidirlər. Ümumiyyətlə Azərbaycanda tərbiyə işi yeni müstəviyə qalxmalıdır, biz ideoloji işə yenidən baxmalıyıq, burada zəifliklər, boşluqlar var. Bizi istəməyən qüvvələr, o cümlədən erməni lobbi qurumları tərəfindən maliyyələşən qurumlar bu boşluqlardan istifadə edirlər, xüsusilə bu gün ki, azad internet mövcuddur. Azərbaycanda internet istifadəçilərinin faiz nisbəti 80-ni keçib. Azərbaycanda azad, demokratik cəmiyyət formalaşıb, azad media var. Ona görə istənilən yalanı ortalığa atmaq olar. Ondan sonra bu yalan ətrafında müzakirələr təşkil olunur, bu yalan artıq bir real fakt kimi təqdim edilir və gənclərin beyinlərini zəhərləmək istəyirlər. Biz buna imkan verə bilmərik. Gənclər özləri də bilməlidirlər, tarixi yaxşı bilməlidirlər. Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib. Əgər belə olmasaydı, bizim çoxəsrlik tariximizin böyük hissəsi müstəmləkəçilik tarixi olmazdı. Bir daha demək istəyirəm ki, bizim müstəqillik dövrlərimiz Azərbaycan xalqının tarixində çox məhduddur. Məhz ona görə ki, aldanmışıq, əzilmişik. Buna imkan vermək olmaz və verməyəcəyik, biz möhkəm dayanmışıq. Heç kim bizim işimizə müdaxilə edə bilməz, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Qoy, ləkələsinlər, qoy, yalan-uydurma yaysınlar, bizə yapışmır. Əsas odur ki, biz öz həyatımızı ləyaqətlə yaşayaq. Ləyaqətli insanlar kimi, Vətənə bağlı olan insanlar kimi, mərd insanlar kimi yaşayaq, quraq, yaradaq, bütün yad qüvvələrə cavabımızı verək və öz inkişaf yolumuzu davam etdirək.

Bu gün Azərbaycan bax, belə inkişaf edir. Ona görə dünyada bizə rəğbət artır. Təsadüfi deyil ki, dünya birliyinin mütləq əksəriyyətini təşkil edən ölkələr bizə səs verirlər. Necə ki, 8 il bundan əvvəl səs veriblər, biz 155 ölkənin səsi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Özü də necə seçilmişik. İndi diplomatlar bunu yaxşı bilirlər ki, adətən səsvermə bir gün ərzində keçirilir və tez bir zamanda yeni üzvlər seçilir. Bizdə isə bu, üç gün çəkdi. Üç gün, 16 tur. Nəyə görə? Çünki bizə rəqib olan ölkə öz namizədliyini geri götürmürdü. Biz hər bir turda böyük səs fərqi ilə qalib idik, amma lazım olan səsləri yığa bilmirdik. Adətən belə olan halda, səslərdə fərq böyük olanda məğlub ölkə öz namizədliyini geri götürür. O isə götürmürdü. Özü də bizə dost ölkə idi. Təəccüb etdim, bu, nə məsələdir, sonra öyrəndik ki, imkan vermirlər. Bəzi böyük dövlətlər imkan vermir və istəyirdilər ki, bizim üzvlüyümüzün qarşısı alınsın. Bir daha qayıdıram bu məsələyə. Əgər həmin o ölkələrin nümayəndələri sizə desələr ki, "biz Azərbaycanı istəyirik, inkişafını istəyirik", inanmayın. İstəsəydilər, imkan verərdilər. Mən indi onların adını çəkmək istəmirəm, maraqlananlar öyrənə bilərlər. On altı tur və üç gün bizim üzvlüyümüzü əngəlləmək istəyirdilər. Sonra nə oldu? Gəldilər bizim nümayəndələrə yaxınlaşıb dedilər ki, Azərbaycan, öz namizədliyinizi geri götürün. Gələn il biz sizə kömək edərik, amma indi geri götürün. Mən bu üç gün ərzində Nyu-Yorkla birbaşa əlaqədə idim. Dedim ki, qətiyyən, axıra qədər, lap bir il çəksə, biz orada bu səsvermədə iştirak edəcəyik. Bir il çəksə, biz Təhlükəsizlik Şurasının işini iflic vəziyyətə sala bilərik. Ancaq ondan sonra həmin o rəqib ölkəyə göstəriş verildi, o, namizədliyini geri götürdü. Bu, nəyin bahasına oldu? Çünki əksər ölkələr bu sistemdən beziblər, yorulublar. Bizə səs verənlər də vaxtilə bizim kimi müstəmləkə olublar, əziliblər, soyulublar, talan ediliblər. Daha artıq onların da səbri tükənib.

Bu yaxınlarda biz 120 ölkənin qərarı ilə Qoşulmama Hərəkatına sədrlik etməyə başladıq. Mən sizə deyim və Bakıda keçirilmiş Zirvə Görüşü onu bir daha göstərdi, bu ölkələr arasında ixtilaflar kifayət qədər çoxşaxəlidir. Elə ölkələr var ki, bir-biri ilə müharibə şəraitindədir. Elə ölkələr var ki, bir-biri ilə diplomatik əlaqələr saxlamırlar. Amma onların hər biri - 119-u bizə səs verdi. Nadir bir vəziyyətdir. Biri də bitərəf qalmadı, yaxud da əleyhinə səs vermədi. Nəyə görə? Bax, dediyim sözlərə görə. Bizə inanırlar, bizi tanıyırlar, bilirlər ki, sözümüzlə əməlimiz birdir. Bilirlər ki, heç kimin qarşısında baş əymirik, lap ən ağır sınaqlarla, ən ağır təxribatlarla üz-üz qalsaq belə. Bu müddət ərzində belə təxribatlar az olmayıb. 2003-cü ili xatırlayaq. Prezident seçkilərindən sonra Azərbaycanda çevriliş cəhdi. Heç kimə sirr deyil ki, mən prezident seçkilərində təmiz qələbə qazanmışdım. Çünki insanlar Heydər Əliyev siyasətinə səs vermişdilər. İğtişaş törədildi. 2005-ci il. Azərbaycan artıq o inqilabların sırasında növbəti yer kimi göstərilirdi. Belə maykalar buraxılmışdı, üzərində yazılmışdı: "Gürcüstan, Ukrayna, Qırğızıstan, Azərbaycan". Yəni, dördüncü biz olmalı idik və bizdən sonra da başqaları olmalı idi. Biz dayandırdıq bu vəbanı, bu xəstəliyi, bu azarı. İndi bütün dünya görür ki, bu inqilablar o ölkələrə ancaq bədbəxtlik gətirib və indi öz problemləri ilə üz-üzədirlər, orada iğtişaşlar səngimir. Çünki oralara bu zəhərli inqilab toxumu səpilmişdi. Necə ki, bu zəhərli alaq otu kimi Xalq Cəbhəsi-Müsavat cütlüyü hakimiyyətdə bir il qaldı. O qədər zəhərlədilər ki, bu günə qədər də o zəhərin təsiri bəzi yerlərdə qalır. Ona görə növbəti məntəqə biz olmalı idik və narıncı maykaları da gətirdirmişdilər, sadəcə olaraq, özünü müxalifət adlandıran ünsürlər bir daha öz kütlüyünü göstərmişlər. Fikirləşmədilər ki, noyabr ayında parlament seçkiləri keçirilməli idi, noyabr ayı soyuq keçir. Ona görə o maykaları bilmirlər necə geyinsinlər, bəziləri pencəyin üstündən maykalar geymişdilər. Yəni, çox gülməli bir mənzərə idi. O da alınmadı. Nəyə görə?! Xalq istəmədi! Xalq dedi ki, yox, bəsdir, görmüşük sizi, necə ki, hakimiyyət uğrunda mübarizə naminə talamısınız, döymüsünüz, söymüsünüz, öldürmüsünüz, Gəncəni bombalamısınız, vətəndaş müharibəsini başlamısınız, Qarabağı satmısınız, Şuşanı satmısınız, Laçını satmısınız. Sonra da fərari kimi qaçmısınız, prezident Kələkiyə, dövlət katibi Kələkiyə, o birilər isə vəzifələrini dondurdular.

Ardı Səh. 5

# "Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verib"

*Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak edib*

Əvvəli Səh. 4

Belə də hakimiyyət olar? Belə də qorxaq adamlar olar? Heç adi adam hansı ki, özünü lider hesab etmir, özünə rəva bilməz ki, belə, bu cür biabır olsun. Amma bunların belə utanan üzü yoxdur. Bu yaxınlarda yenə də o mənzərəni hamımız görmüşük, biabırçılıqdır, xəstədilər, dəlidirlər, nədirlər, vallah deməyə söz tapmıram. Ona görə bu gün müxalifət düşərgəsində boşluq yaranıbdır və bizi istəməyənlər gənclərdən istifadə etmək istəyirlər ki, onları xalqın üstünə qaldırsınlar. Sağlam müxalifət yaradılmalıdır. Dövlətçiliyə sadiq olan, xalqa bağlı olan, doğrudan da təklif verən, hakimiyyəti tənqid edən, amma konstruktiv təklif verən, yol göstərən. Ancaq biz sevinərik əgər belə müxalifət yaranarsa. Doğrudan da bizim işimizə kömək olar. Biz hər şeyi indi öz üzərimizə götürmüşük, bəlkə də hansısa alternativ yanaşma, yaxud da ki, mövqe kömək edə bilər. Amma yoxdur və yaxın üfüqlərdə də görünmür.

Bizim xarici siyasətlə bağlı uğurlarımız təkcə bu sədrliklə məhdudlaşmır. Halbuki bu, çox önəmli məsələdir. Oktyabr-noyabr aylarında - cəmi iki ay ərzində görün nə qədər böyük hadisələr baş verdi. Prezident Putinin dəvəti ilə mən "Valday" Diskussiya Klubunda iştirak etdim. Oraya cəmi 3 dövlət başçısı dəvət olunmuşdu, o cümlədən Azərbaycan. Bu, bir daha göstərir ki, Rusiya və onun Prezidenti Azərbaycana nə qədər böyük önəm verir və bizə böyük hörmət göstərir. Orada da canlı efirdə sözümü dedim. Mən bunu Bakıda da, hansısa rayonda da deyə bilərdim. Onu kim eşidəcəkdi? Bizimkilər, yəni, biz bunu özümüz üçün demirik, biz deyirik ki, dünya bilsin və orada canlı efirdə mən dedim: "Qarabağ Azərbaycandır, nida işarəsi". Bir daha bütün dünya gördü ki, Qarabağ Azərbaycanındır, bir daha bütün dünya bu həqiqəti gördü.

Ondan sonra MDB Zirvə Görüşündə, - o, "Valday"dan bir neçə gün sonra baş verdi, - mən qeyd etdim ki, biz Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinin ərəfəsindəyik. Biz imkan verə bilmərik ki, MDB məkanında faşistlərə abidələr ucaldılsın. Dedim ki, Ermənistanda faşist Qaregin Njdeyə 6 metrlik abidə ucaldılıb, bu, sökülməlidir, bu, qəbuledilməzdir. Dedim ki, o vaxt o, həbs olunmuşdur və həbsxanada da çürümüşdür. Onu da bildirmək istəyirəm ki, həbs edən təşkilatın adı "SMERŞ" idi. Bilməyənlər bilsinlər ki, bu, abreviaturadır, bunun adı "Smertğ Şpionam", "SmerŞ", yəni, "Casuslara ölüm". Yəni, casus kimi həbs olundu, ona 25 il cəza verildi, faktiki olaraq, ölüm cəzası və o, Vladimir türməsində dünyadan getdi. İndi, görün, Ermənistanın baş nazirinin cavabı nə oldu? Dedi ki, Soljenitsın da lagerdə olub, dissidentlər də türmədə olub. Yəni, bu adam Soljenitsını və söz azadlığına görə həbs edilən və sonra reabilitasiya olunan digər adamları faşist Njde ilə eyniləşdirir. Bu, onu göstərir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin faşist mahiyyəti dəyişmir. Mən onlara şans verdim. Öz çıxışımda dedim ki, onu əvvəlki hakimiyyət ucaldıb. İndiki hakimiyyət özünü demokratik adlandırırsa, söksün, yıxsın bu abidəni. Bu ləkəni yusun Ermənistan üzündən. Heç olmasa, onlar bir ləkədən canlarını qurtarsınlar. Yox, görün, bunların faşist mahiyyəti hara gedib çıxıb ki, bu, türklərə qarşı vuruşub. Yəni, onlar üçün əsas budur. Onlar uşaqları da belə yetişdirirlər, bizə qarşı, Türkiyəyə qarşı, müsəlmanlara qarşı nifrət abhavasında.

Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var, onlar Ağdam məscidini, Şuşa məscidlərini, işğal edilmiş digər torpaqlardakı məscidləri nə günə qoydular? Bu, axı təkcə bizim məscidlərimiz deyil, bütün müsəlman aləminin məscidləridir. Buna necə göz yummaq olar? Necə belə riyakarlıq etmək olar?

Biz dəfələrlə İslam həmrəyliyi ilə bağlı tədbirlər keçirmişik, sözümüzü demişik. Bunu davam etdirəcəyik və o faşist Njdeyə ucaldılan abidə də gündəlikdədir. O cinayətkar dövlətlə münasibətlər quran bəzi müsəlman ölkələri bunu edəndə və faşistlərə qucaq açanda heç olmasa, o dağılmış məscidlərin təsvirlərini göz önünə gətirsinlər və özlərinə sual versinlər ki, mən kiminlə qucaqlaşıram?!

Ona görə bizim bu istiqamətdə siyasətimiz davam etdiriləcək. Amma məsələ bununla bitmir. Ermənistanın baş naziri Aşqabad Zirvə Görüşündə böyük səhv buraxdı, Soljenitsınla faşisti eyniləşdirdi. Amma heç olmasa, ondan sonra bir nəticə çıxaraydı. Çünki həm mətbuatda, özü də Rusiya mətbuatında, başqa mətbuatda bunu lağa qoydular ki, bu, nə deyir, nə danışır, bu, nədir? Ondan sonra, görün, nə deyir? Rusiya jurnalistləri ilə görüşdə deyir ki, nə olsun ki, Njde Hitlerlə görüşüb, Molotov da Hitlerlə görüşüb. Bax, bilirsiniz, buna daha şərh vermək mümkün deyil. Molotov Sovet İttifaqının Xarici İşlər naziri olub, 1939-cu ildə müharibənin mümkünlüyünü aradan qaldırmaq üçün gedibdir, görüşübdür. O, Hitlerə xidmət etmirdi. O, Hitlerə qarşı koalisiyanın başında duran Sovet İttifaqının aparıcı simalarından biri idi. Onu Njde ilə eyniləşdirmək olar?! Mən, eyni zamanda, bu misalları ona görə gətirirəm ki, gənclər yaxşı oxusunlar, gələcəkdə belə gülünc vəziyyətə düşməsinlər, tarixi yaxşı bilsinlər. Amma bunu deyən bu gün o ölkənin rəhbəridir. Yəni, onlardan nə gözləmək olar? Bu sual ritorik sualdır.

Elə bu iki ay ərzində bizim xarici siyasətlə bağlı digər önəmli hadisələr də baş vermişdir. Biz oktyabr ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərimizə götürdük və Zirvə Görüşünü Bakıda keçirdik. Qoşulmama Hərəkatının sədrliyini öz üzərimizə götürmüşük. Üç il ərzində biz bu təşkilata sədrlik edəcəyik. Bu, BMT-dən sonra dünyada ikinci təşkilatdır və əslində, birinci təşkilatdır. Çünki BMT indi elə vəziyyətdədir ki, onu islah etmək istəyənlərin sayı gündən-günə artır, bu, bir. İkincisi, BMT-nin rəhbəri yoxdur. Heç bir ölkə BMT-yə rəhbərlik etmir. Təhlükəsizlik Şurasına da sıra ilə rəhbərlik olunur. Biz də, o cümlədən rəhbərlik etmişik. Bu rəhbərlik müddətlidir. Biz isə dünyanın BMT-dən sonra ən böyük təşkilatının sədriyik və indi bizim sözümüz keçəcəkdir. Gündəliyi biz formalaşdırırıq, məsələləri biz müzakirəyə çıxaracağıq. Əlbəttə ki, öz məsələmizi və əzilmiş, ədalətsizliyə düçar olmuş ölkələrin məsələlərini qaldıracağıq, onları müdafiə edəcəyik.

Noyabr ayında Bakıda Dünya dini liderlərinin II Zirvə Görüşü keçirilmişdir, 70 ölkənin dini liderləri Bakıya gəlmişlər. Dünyada buna bənzər ikinci yığıncaq yoxdur. Mən iclaslarda bir-birinin yanında oturanlara fikir verirdim, əgər onlar başqa yerdə görüşsəydilər, bəlkə başqa cür danışardılar. Amma oturublar, bir-birini dinləyirlər, bir-birinə salam verirlər. Biz bunu istəyirik. Çünki dünya başqa istiqamətdə gedir. Deyirlər ki, multikulturalizm ölübdür, yoxdur. Müsəlman miqrantlarını qəfəsdə saxlayırlar, "Stop İslam" deyirlər demokratiya beşikləri. Deyirlər ki, biz miqrantları qəbul edə bilərik, - mən Avropa ölkələrini nəzərdə tuturam, - ancaq müsəlman miqrantları yox. Deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Amma biz göstəririk ki, yox, elə deyil. Bu, siyasi iradədən, baxışlardan asılıdır, sən nə istəyirsən, hansı siyasət yürüdürsən. Bax, biz bu siyasəti yürüdürük. Bu siyasət yeganə düzgün siyasətdir. Əks təqdirdə, gələcək müharibələr, o cümlədən ola bilsin, dini müharibələr qaçılmazdır. Ona görə, bax, dini liderlərin Zirvə Görüşünün keçirilməsi belə səviyyədə və belə təmsilçiliklə bir daha bizim hörmətimizi, rolumuzu göstərir. Biz nəinki ölkə daxilində, dünya miqyasında bu gün çox önəmli ölkəyə çevrilmişik.

O ki qaldı, daxili məsələlərə, onlar da öz həllini tapır. Azərbaycan iqtisadiyyatı inkişaf edir. Mən gələcəkdə iqtisadi sahədə heç bir problem görmürəm. Manatın məzənnəsi artıq üç ildir ki, sabitdir. Əminəm ki, belə davam edəcək. Valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız ümumi daxili məhsuldan artıq çoxdur. Xarici borcumuz azalır, yenə də azaldacağıq. Mən göstəriş vermişəm təqribən 10 faizə qədər, indi ümumi daxili məhsulun 17 faizini təşkil edir, 10 faizinə qədər getməlidir. Sənaye artır. Bu il qeyri-neft sənayemiz 15 faiz, kənd təsərrüfatı 7 faiz artıbdır. Davos Ümumdünya Forumu bizi çox yüksək yerlərə layiq görür, o cümlədən islahatların aparılması istiqamətində. İslahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə biz dünyada birinci onluqdayıq. Özü də bunu biz yox, Davos deyir. Dünya Bankı nə deyir? Deyir ki, Azərbaycan 20 ən islahatçı ölkə sırasındadır.

İslahatlar bizim şüurlu seçimimizdir. Elə fərz edə bilərik ki, nəyə lazımdır bu islahatlar? Onsuz da hər şey yolunda gedir, ölkə inkişaf edir, yeni müəssisələr açılır, abadlıq işləri görülür. Yox, struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır. Baxın, iqtisadi islahatlar nəticəsində təkcə bu ilin on ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplamışıq. Bunları sosial sahəyə yönəldirik. Amma bu, hələ islahatların növbəti mərhələsinin birinci addımlarıdır. Bundan sonra da daha böyük addımlar atılacaqdır. Bu, imkan verir ki, sosial sahəyə böyük diqqət yetirək. Bundan 4 milyon 200 mindən çox insan faydalanıb. Bu il minimum əməkhaqqı iki dəfə, minimum pensiya 70 faiz, müavinətlər iki dəfə, tələbələrin təqaüdləri 50 faiz, köçkünlərə verilən təqaüd 50 faiz artırılıb. Nəyin hesabına? Bu, göydən düşən deyil, bunları islahatların hesabına əldə edirik, əldə də etməliyik.

Kadr islahatları gedir, bu da zərurətdir, durğunluq yarada bilmərik, sovet dövrünün durğunluğu hələ ki, yadımızdan çıxmayıb. Ona görə kadr islahatları aparılmalıdır, ancaq təkamül yolu ilə, təbi yolla, burada da heç bir əyintilərə yol vermək olmaz. Mən bir neçə dəfə bu məslə ilə bağlı fikirlərimi deyəndən sonra bəziləri başladılar bəzi adamların yaşını hesablamağa ki, bunun 70 yaşı var getməlidir, qətiyyən belə şey ola bilməz. Sonra dedim mən imkan vermərəm ki, kampaniya aparılsın. Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliyi - bu sintez Azərbaycanda var. Həm cəmiyyətdə, həm iqtidarda var. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. İndi bəzi ölkələrdə buna fikir verilmir. Qadınlarla kişilər arasında artıq fərq qoyulmur. Amma biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq. Qadınlara hörmət etməliyik, biz onları qorumalıyıq, onları müdafiə eləməliyik. Onlar bizi yox, biz onları. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Amma biz ənənəvi düşüncədən kənarda yaşaya bilmərik və gənc nəsil də bunu bilsin. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən "ağsaqqal", "ağbirçək" sözlər çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda adam dəhşətə gəlir. Sonra da bizə deyirlər ki, gəlin bizə inteqrasiya edin. Mən bir dəfə demişəm, hələ Avropada o iqtisadi böhran baş alıb gedəndə dedim ki, biz haraya inteqrasiya etməliyik, böhrana? Haraya inteqrasiya etməliyik, "Stop İslam!" deyənlərə? Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik. Ona görə Azərbaycanda yaşlı nəsil, gənc nəsil bir yerdə olmalıdır, necə ki, ali məktəblərdə. Baxın, indi Bakı Dövlət Universitetində minlərlə gənc var, müəllim var. Müəllimlər biliklərini bölüşürlər, gənclər öyrənirlər, sabah onların yerini tutacaqlar. Belə inkişaf etməliyik. Əlbəttə, kadr islahatları bundan sonra da aparılmalıdır. Ancaq bu, kampaniyaya çevrilməməlidir.

O ki qaldı müəllimlərin fəaliyyətinə, mən onların fəaliyyətini çox yüksək qiymətləndirirəm. Müəllim peşəsi çox şərəfli, məsuliyyətli, çox ağır peşədir. Müəllim hər zaman tələbə qarşısında öz biliyini göstərməlidir. Tələbələr də indi hər şeyi görürlər, hər şeyi seçə bilirlər. Ona görə müəllimlər daim öz biliklərini artırmalıdırlar. Mən deyim ki, biz müasir dövrdə köhnə baqajla yaşaya bilmərik. Ona görə indi internet dövrüdür, hər bir məlumatı əldə etmək üçün imkanlar var. Daim müəllimlər yeniliklərə baxsınlar, onların peşəsində hansı proseslər gedir, dünyada hansı proseslər gedir, texnoloji inkişaf nədən ibarətdir ki, tələbələrə keyfiyyətli biliklər versinlər. Ona görə müəllim peşəsi şərəflidir, hörmətlidir, ancaq, eyni zamanda, müəllimlər də daim öz üzərlərində işləməlidirlər.

Mən də müəllim olmuşam. İnstitutu bitirəndə mən bir xarici ölkəyə təyinat aldım, ancaq ondan imtina etdim, xaricə getmək istəmədim. Qaldım institutda, aspiranturaya daxil oldum, dissertasiya müdafiə etdim və 23 yaşımda dərs verməyə başlamışdım, özü də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda, 23 yaşında, 5 il ərzində. Ona görə müəllim peşəsi mənim üçün yad peşə deyil. Mən də müəllim olmuşam, müəllim kimi sizi salamlayıram."

XXX

Sonra Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev və universitetin professoru, hüquq elmləri doktoru Firuzə Abbasova çıxış etdilər. Daha sonra pianoçu Etibar Əsədlinin ifasında Bakı Dövlət Universitetinin məşhur 60 aliminə həsr olunmuş "İthaf" kompozisiyası təqdim edildi.

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin ikinci kurs tələbəsi Rəşad İmanov çıxış etdi. Universitetin 16 fakültəsi üzrə elm sahəsini əhatə edən rəqəmsal qrafikin təqdimatı oldu. Sonda Bakı Dövlət Universitetinin himni səsləndirildi.

# “Rusiyanın və NATO-nun ali hərbi komandanlığının Bakıda görüşlər keçirməsi yaxşı bir ənənəyə çevrilib”

*Prezident İlham Əliyev Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev qeyd edib ki, Rusiyanın və NATO-nun ali hərbi komandanlığının Bakıda görüşlər keçirməsi yaxşı bir ənənəyə çevrilib:***



“Biz bunu yüksək qiymətləndiririk. Keçən il üç dəfə belə görüş olub. Bu il artıq ikinci görüşdür. Yəni, bu ənənə artıq yaşayır və düşünürəm ki, davam edəcək. Biz bunu bizə böyük etimad əlaməti kimi qiymətləndiririk. Ona görə ki, belə görüşlərin keçirildiyi yer çox ölkələr ola bilərdi, lakin seçim Bakının üzərinə düşüb və artıq üçüncü ildir ki, bu ənənə davam edir, - görüşlərin təməli 2017-ci ildə qoyulub, - bu, o deməkdir ki, bu məkan nəticə verir. Biz belə düşünürük.

Əlbəttə, hər bir görüş, zənnimcə, bütün dünyada ümid doğurur. Ona görə ki, təkcə bizim regionda deyil, həm də dünyada təhlükəsizlik və sülh sizin əldə etdiyiniz razılaşmalardan asılıdır. Buna görə biz, əlbəttə ki, bundan qürur duyuruq. Bunu həm də bizim aramızda böyük etimada əsaslanan münasibətlərin əlaməti kimi qəbul edirik. Bu gün ən yüksək səviyyəyə çatmış münasibətlərimizin qədim tarixi də bunu təsdiq edir.

Mehriban Əliyevanın Moskvaya dünən başa çatmış rəsmi səfəri də bizim münasibətlərin yüksək səviyyədə olmasını bir daha təsdiq etdi. Biz bu səfəri çox yüksək qiymətləndiririk. Başa düşürük ki, bu, beynəlxalq siyasətdə görünməmiş hadisədir, dövlətdə birinci şəxs olmayan adam Prezident tərəfindən, özü də dünyanın aparıcı ölkəsinin Prezidenti və dünya siyasətçiləri arasında bir nömrəli Prezident tərəfindən ən yüksək səviyyədə qəbul edilir. Zənnimcə, bu, təkcə mənim fikrim deyil, rəhbərlərin böyük əksəriyyətinin fikridir. Biz dəvət faktının özünü, münasibətlərin səviyyəsini, Mehriban Əliyevanın şəxsən Prezident tərəfindən ali “Dostluq” ordeni ilə təltif edilməsini və bu təltifdən sonra deyilən sözləri çox yüksək qiymətləndiririk. Biz bütün bunları çox yüksək qiymətləndiririk və əlbəttə, şadıq ki, ölkələrimiz arasında münasibətlər bu cür yüksək səviyyəyə çatıb. Əlbəttə, Hökumətin sədri ilə, Federasiya Şurasının sədri ilə görüşlər də çox konstruktiv, zəngin olub və həmçinin regionlararası yubiley forumunun keçirilməsi və Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində “Azərbaycan” pavilyonunun açılması - bütün bunlar bizim əlaqələrin möhkəmlənməsi işində çox mühüm addımlardır. Əminəm ki, növbəti il də səmərəli olacaq. Gələn ay Vladimir Vladimiroviçlə görüşümüz olacaq.

Əlbəttə, sizin məşğul olduğunuz sahədə də müsbət dinamikanı görürük. Sizin Bakıya hər gəlişiniz, o cümlədən hərbi əməkdaşlığı, çox uğurla inkişaf edən hərbi-texniki əməkdaşlığı bir daha müzakirə etmək və gələn il qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirmək üçün bir fürsətdir. Hesab edirik ki, Rusiya ilə Azərbaycan arasında həm ənənəvi istiqamətlərdə, həm də yeni istiqamətlərdə əməkdaşlıq potensialını artırmağa imkan var. Ona görə də bir daha xoş gəlmisiniz. Qarşıdakı görüşdən yaxşı nəticələr arzu edirəm.”

X X X

Görüşdə tərəflər beynəlxalq və regional təhlükəsizlik problemləri, həmçinin hərbi və hərbi-texniki əməkdaşlığın aktual məsələlərini, o cümlədən müdafiə idarələrinin Xəzərdə qarşılıqlı fəaliyyətini müzakirə ediblər.

# “Biz NATO-nun etibarlı tərəfdaşıyıq”

*Prezident İlham Əliyev NATO-nun Hərbi Komitəsi sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da NATO-nun Hərbi Komitəsinin sədri Ser Stüart Piiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev qeyd edib ki, artıq neçə il ərzində Azərbaycan belə mühüm görüşlər üçün öz logistika dəstəyini və məkanını təqdim edir:***

“Biz bunu yüksək qiymətləndiririk. Biz bunu aramızda olan dostluq və tərəfdaşlıq əlaməti hesab edirik. Həmçinin etimad əlaməti kimi də qəbul edirik. Çünki dünyada çoxlu ölkə var. Birləşmiş Millətlər Təşkilatında demək olar iki yüz ölkə var. Lakin müəyyənliyə, əməkdaşlığa, risklərin azalmasına və planetimizin daha təhlükəsiz olmasına gətirib çıxaran bu görüşlərin keçirilməsi yeri kimi Azərbaycan seçilmişdir. Biz çox şadıq və qürur hissi keçiririk ki, Azərbaycan həm NATO, həm də Rusiya tərəfindən bu görüşün keçirilmə yeri kimi seçilmişdir. Ümidvarıq ki, əvvəlki, bugünkü və növbəti görüşlər sülh və sabitliyə töhfə verəcəkdir. Bir daha xoş gəlmisiniz.”

X X X

NATO-nun Hərbi Komitəsinin sədri Ser Stüart Piiç:

-Cənab Prezident, təşəkkür edirəm. Əvvəlcə icazə verin Baş katib cənab Stoltenberqin salamlarını Sizə çatdırım. O, Sizə ən səmimi salamlarını çatdırır.

Prezident İlham Əliyev: Çox sağ olun, mənim də salamlarımı cənab Baş katibə çatdırın. Mən onunla NATO mənzil- qərargahında görüşümü xatırlayıram. Həmçinin Şimali Atlantika Şurasında səfirlərlə ünsiyyətimi xatırlayıram. Mən orada dəfələrlə olmuşam.

Ser Stüart Piiç: Bugünkü görüşə əlavə olaraq icazə verin Silahlı Qüvvələrinizin NATO-ya dəstəyinə görə Sizə təşəkkürümü bildirim. Tərəfdaş və dost olaraq bu, bizim üçün çox önəmlidir. Sizin Silahlı Qüvvələrinizə bizim böyük hörmətimiz var, onlar çox peşəkar və effektivdirlər.

Prezident İlham Əliyev: Çox sağ olun. Biz NATO-nun etibarlı tərəfdaşıyıq və bizim hərbçilərimiz Əfqanistanda NATO hərbçiləri ilə çiyin-çiyinə xidmət edirlər. Bildiyiniz kimi, bu yaxınlarda biz hərbçilərimizin sayını 30 faiz artırdıq, indi onların sayı 120 nəfərdir. Həmçinin biz Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində də işləyirik. Eyni zamanda, Əfqanistana gedən yüklərə mühüm logistik və nəqliyyat dəstəyini təmin edirik. Həmçinin iki il bundan əvvəl biz Azərbaycan və Türkiyə arasında dəmir yolunun açılışını etdik və hazırda bu yoldan daşımalar üçün istifadə edilir. Digər vacib məsələ ondan ibarətdir ki, biz Lapis Lazulinin öz sistemimizlə bağlanmasına nail olduq. Biz artıq Əfqanıstandan onların ixrac etdiyi yükləri qəbul etməyə başlamışıq. Beləliklə, biz Əfqanıstana iqtisadi və sosial inkişaf üçün daha çox pul qazanmağa kömək edirik. Eyni zamanda, biz bir neçə dəfə Əfqan Milli Ordusunun Etimad Fonduna ianələr vermişik. Həmçinin biz Əfqanıstan hökuməti ilə islahatlar üzərində yaxından işləyirik. Çox qürurverici ki, dövlət xidmətlərinin göstərilməsi üzrə ilk mərkəz olan ASAN, - bu nou-xaunun sahibi bizik, - Əfqanıstanda açılmışdır. Beləliklə, bu, vahid pəncərə sistemi çərçivəsində çox nadir dövlət xidmətləri mərkəzidir. İki yüzdən çox xidmət var, bunlar onlayn və çox səmərəli şəkildə göstərilir. Burada bu mərkəzin bəyənilmə səviyyəsi 100 faizə yaxındır. Bəlkə nümayəndə heyətinizin bəzi üzvləri onların birinə baş çəkə bilər, Bakıda beş mərkəz mövcuddur. Bunu biz əfqan tərəfdaşlarımıza nəyi təklif etdiyimizi görsünlər deyə deyirəm. Əlbəttə, təhlükəsizlik və terrorla mübarizə əməliyyatları çox vacibdir, lakin ölkəyə iş yerləri, məşğulluq, sosial müdafiə, iqtisadi islahatlar lazımdır və biz bu məsələlərlə bağlı Əfqanıstan hökuməti ilə çox geniş iş aparırıq.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva "Dostluq" ordeni ilə təltif olunması münasibətilə ona ünvanlanan təbriklərə görə təşəkkür edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiyanın dövlət mükafatı - "Dostluq" ordeni ilə təltif edilməsi münasibətilə ona ünvanlanan təbriklərə görə təşəkkür edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi İnstaqram səhifəsində bununla bağlı paylaşım edib. Paylaşımda deyilir: "Hörmətli həmvətənlər!

Rusiya Federasiyasının dövlət mükafatı - "Dostluq" ordeni ilə təltif edilməyim münasibətilə təbriklərinizə görə sizə dərin minnətdarlığımı bildirirəm. Rusiyaya rəsmi səfərim zamanı mənə ünvanladığınız xoş, səmimi sözlərə görə sizə təşəkkür edirəm. Öz fəaliyyətimdə mən daim sizin dəstəyinizi hiss edirəm. Sizin mənə inamınız, xoş münasibətiniz və səmimiyyətlə uğurlar diləməyiniz mənim üçün ən gözəl ilham mənbəyidir. Çox sağ olun!".

## Əli Həsənov: "Həm Yerevandakı abidə, həm də Armavirdəki xatirə lövhəsi sökülməlidir"



"Təəssüf ki, son illər bəzi ölkələrdə müharibənin dərsləri unudulur, nasistlərin və onların əlaltılarının qəhrəmanlaşdırılması cəhdləri göstərilir". Bu sözləri Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirib.

"Məsələn, bir neçə il əvvəl Ermənistan paytaxtında Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyanın altı metrlik heykəli ucaldılıb. 2012-ci ildə isə Krasnodar diyarındakı Armavir şəhərinin erməni icması erməni Apostol kilsəsinin ərazisində ona xatirə lövhəsi qoyub. Onun Üçüncü Reyxlə fəal əməkdaşlıq etdiyi, Qızıl Ordunun hissələrinə qarşı döyüşən diversiya qrupu və bütöv bir erməni batalyonu yaratdığı məlumdur. Njdenin əsas şüarı belə olub: "Almaniya uğrunda həlak olan, Ermənistan uğrunda həlak olur". Hesab edirəm ki, postsovet məkanında bu cür cinayətkarların qəhrəmanlaşdırılması cəhdlərinə yer olmamalıdır. Həm Yerevandakı abidə, həm də Armavirdəki xatirə lövhəsi sökülməli, onların təşəbbüskarları və təşkilatçıları isə cəmiyyətin bütün təbəqələri tərəfindən qəti şəkildə qınanmalıdır. Bu baxımdan faşist işğalçıları və onların əlaltıları ilə döyüşlərdə həlak olmuş azərbaycanlı döyüşçülərin xatirəsinə abidə qoyulması xüsusi hörmətə və dərin minnətdarlığa layiqdir. Şübhəsiz ki, bu heykəl Azərbaycan və osetin xalqları, bütövlükdə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasındakı dostluğun daha bir rəmzidir".

Prezident köməkçisi hesab edib ki, müstəqilliyini bərpa etdikdən sonra Rusiya ilə mehriban qonşuluq əlaqələrinin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin ən mühüm istiqamətlərindən biri olub: "Sevindirici haldır ki, ikitərəfli əlaqələrimiz bütün istiqamətlərdə - siyasətdən humanitar sahəyədək inkişaf edir. Biz bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik, iqtisadi-ticari və mədəni sahələrdə uğurlu qarşılıqlı fəaliyyət göstəririk, energetika və nəqliyyat sektorlarında birgə layihələr həyata keçiririk. Regionlararası əməkdaşlıq da ildən-ilə inkişaf edir. Rusiya Federasiyasının 70-dən çox subyekti Azərbaycanla iqtisadi-ticari və humanitar əlaqələr yaradıb. Onların arasında sizin respublika da var. 2015-ci ildə Azərbaycan və Şimali Osetiya-Alaniya hökumətləri arasında iqtisadi-ticari, elmi-texniki və mədəni əməkdaşlığa dair Saziş imzalanıb. Bu sənəd çərçivəsində müxtəlif sahələrdə əhəmiyyətli layihələr həyata keçirilir.

Bildiyiniz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin şəxsən dəstəyi ilə Vladiqafqazda XX əsrin böyük neft sənayeçisi və mesenatı Murtuza Muxtarovun inşa etdirdiyi məscid bərpa olunub. Qeyd etmək xoşdur ki, bizim ənənəvi dostluğumuzun və qardaşlığımızın təcəssümü olan bu memarlıq incisi Şimali Osetiyanın mədəni-mənəvi mərkəzlərindən biridir". Qeyd edək ki, Əli Həsənov bu çıxışı noyabrın 24-də Rusiya Federasiyasının Şimali Osetiya-Alaniya Respublikasında Böyük Vətən müharibəsi zamanı Mozdokun azad olunmasında iştirak etmiş azərbaycanlılardan ibarət 223-cü atıcı diviziyanın tərkibində döyüşərək canlarından keçmiş azərbaycanlıların xatirəsinin anım mərasimində edib.

## Azərbaycan nümayəndə heyəti Kabardin-Balkar Respublikasının başçısı ilə görüşüb

Azərbaycan nümayəndə heyəti noyabrın 26-da Nalçik şəhərində Rusiya Federasiyası Kabardin-Balkar Respublikasının başçısı Kazbek Kokov ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Allahşükür Paşazadə Qafqaz və Azərbaycan xalqları arasında bir çox sahələrdə sıx əlaqələrin mövcudluğunu qeyd edib. "Bizi birləşdirən ortaq dəyərlərdən biri faşizmə qarşı birgə mübarizə aparmağımız olub. Təəssüf ki, bu gün də faşizmi yaşadan qüvvələr var. Hazırda bəzi yerlərdə insanlara zülm edən Qaregin Njdeyə abidə qoyulur. Bu cür hallara qarşı biz birlikdə mübarizə aparmalıyıq", - deyə A.Paşazadə vurğulayıb.



Dünya dini liderlərinin Bakıda keçirilən II Sammitinə toxunan QMİ sədri həmin tədbirdə Rusiyadan, o cümlədən Qafqaz regionundan nümayəndələrin iştirakını yüksək qiymətləndirdiyini qeyd edib.

Kazbek Kokov Rusiya və Azərbaycan arasında bütün sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirib, Şeyxülislam Allahşükür Paşazadənin Qafqazda dinlər və millətlər arasındakı münasibətlərin möhkəmləndirilməsində xidmətlərindən danışıb. Vurğulayıb ki, atası, Kabardin-Balkar Respublikasının əvvəlki başçısı Valeri Kokov ilə ulu öndər Heydər Əliyevin sıx dostluq əlaqələri olub və bu gün Prezident İlham Əliyev bu münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəldib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Azərbaycan ilə Rusiya arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsində olduğunu, beynəlxalq müstəvidə də uğurla inkişaf etdiyini bildirib. Əli Həsənov, eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiya Federasiyasına rəsmi səfərinin və burada keçirdiyi görüşlərin ölkələrimiz arasında münasibətlərin daha da inkişafı baxımından əhəmiyyətini qeyd edib.

## Rasim Quliyev: "Əli İnsanovu ətrafındakılarla bir maraq birləşdirir, o da qisasçılıqdır"



"Yaradılan yeni partiya ideoloji əsasa söykənmədiyi üçün, heç bir uğurlu gələcək vəd etmir. İstər Ə.İnsanov, istərsə də onun ətrafındakı adamları bir maraq birləşdirir, o da qisasçılıqdır. Təqdimatdan da görünür ki, əksəriyyəti cəmiyyətdə ciddi çəkiyə malik olmayan, orta məmur kontingentini təmsil etmiş sabiq məmurlardır". Bunu "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirib. R.Quliyev bildirib ki, görünür, onların hamısının nə vaxtsa bu iqtidarla maraqları kəsişib, ona görə də bir yerə toplaşıblar: "Bilirsiniz ki, YAP və onun təmsil etdiyi hakimiyyət uzun müddətdir dövlətçilik yolunda sabitqədəm hərəkət edir. Bunlar isə gedən qatardan düşüb qalmış insanlardır. Həyat inkişaf edir. İqtidar qatarı öz trayektoriyası ilə hərəkət edir. Ə.İnsanovun ətrafındakı insanlar isə hansısa dayanacaqda düşüb qalıblar. Onların hazırkı cəmiyyətdə önə çıxması üçün nə münbit şərait, nə də potensialları var. Yəqin ki, partiya tam formalaşandan sonra biz az sayda müxtəlif yeni adamları orada görə biləcəyik və onda prosesə bağlı ətraflı rəyimizi təqdim edəcəyik. Partiyanın adını nə istəyirlər qoysunlar. Əsas ad deyil, əsas onun mahiyyəti və kimlərin ora toplaşmasıdır. Onların gücü, söykənəcəyi sosial baza da yoxdur. İlkin təqdimatdan görünür ki, onların heç beynəlxalq aləm tərəfindən də qəbul olunmaq perspektivləri yoxdur. Hansı tərəfdən baxsaq, burada bir perspektiv görmürük. Qisas üzərində qurulan təbliğat yalnız sabun köpüyü ola bilər. Xüsusilə də quruma Ə.İnsanovun rəhbərlik etməsi onu indidən uçuruma yuvarladıb. Ambisioz və qisasçılıq adda bir ideologiya yoxdur ki, onun ətrafında siyasi fəaliyyət aparmaq mümkün olsun. Azərbaycanda olan passiv, yalnız sədr və portfelindən ibarət partiyalardan birinin də sayı artmış olacaq".

## Çin XİN rəhbəri: "Azərbaycan Prezidenti İlham Əliyev ÇXR Sədri Si Cinpinin ən yaxın dostlarından biridir"

Çin Xalq Respublikası (ÇXR) Dövlət Şurasının üzvü, Xarici İşlər naziri Van İyə "Azərbaycan Respublikasının Diplomatik Xidmət Orqanlarının 100 illiyi (1919-2019)" yubiley medalı təqdim olunub.

AZƏRTAC xəbər verir ki, Çin Xarici İşlər Nazirliyində keçirilən mərasimdə Azərbaycanın Çindəki səfiri Əkrəm Zeynallı ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini, bu məsələdə dövlət başçıları İlham Əliyev və Si Cinpinin münasibətlərimizin möhkəmləndirilməsi ilə bağlı qərarlarının böyük rol oynadığını deyib. Bildirib ki, Prezident İlham Əliyev ölkəmizin Çin ilə münasibətlərinin möhkəmlənməsinə böyük əhəmiyyət verir. Azərbaycan və Çin həm ikitərəfli, həm də beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli formatda səmərəli əməkdaşlıq edir. Azərbaycan hər zaman "Vahid Çin" siyasətini dəstəkləyir və Çinin də Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə olan dəstəyini yüksək qiymətləndirir.

Səfir Ə.Zeynallı Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olmaqla yanaşı, özünün



əlverişli coğrafi mövqeyi, iqtisadi və nəqliyyat-logistika potensialı ilə layihənin icrasında mühüm rola malik olduğunu deyib. Bu təşəbbüs iki ölkə arasında tərəfdaşlığın möhkəmləndirilməsinə töhfə verir, müxtəlif sahələrdə yeni əməkdaşlıq imkanları yaradır. Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin aprelində Pekində 2-ci "Bir kəmər, bir yol" beynəlxalq əməkdaşlıq forumunda iştirakı ölkəmizin bu çərçivədə əməkdaşlığın genişləndirilməsinə hazır olduğunu göstərir.

Səfir Azərbaycan Prezidenti İlham Əliyevin salamlarının Çin Xalq Respublikasının Sədri Si Cinpinə çatdırılmasını xahiş edib. Qeyd olunub ki, Çin Dövlət Şurasının üzvü, Xarici İşlər naziri Van İ iki ölkə arasında münasibətlərin inkişafında böyük rol oynayıb. Azərbaycan Xarici İşlər nazirinin müvafiq sərəncamı ilə Azərbaycan ilə əlaqələrin inkişafında və gücləndirilməsindəki xüsusi xidmətlərinə görə Van İ "Azərbaycan Respublikası Diplomatik Xidmət Orqanlarının 100 illiyi (1919-2019)" yubiley medalı ilə təltif olunub.

Çinin Azərbaycan ilə əlaqələrinin inkişafına böyük əhəmiyyət verdiyini bildirən Çin Dövlət Şurasının üzvü, Xarici İşlər naziri Van İ dövlət başçıları arasında çox möhkəm və inamlı münasibətlərin yarandığını, Prezident İlham Əliyevin ÇXR Sədri Si Cinpinin ən yaxın dostlarından biri olduğunu deyib. Nazir Van İ bildirib ki, ölkələrimiz həmişə bir-birini həssas məsələlərdə dəstəkləyir. O, cari ilin mayında Azərbaycana səfərini məmnunluqla xatırlayaraq, ölkəmizin onda çox yaxşı təəssürat yaratdığını deyib. Çin rəsmisi "Azərbaycan Respublikasının Diplomatik Xidmət Orqanlarının 100 illiyi (1919-2019)" yubiley medalı ilə təltif olunmasından şərəf duyduğunu bildirib, bu medalın onun əməyinə verilən böyük dəyər olmaqla yanaşı, iki ölkə arasında dostluğun göstəricisi olduğunu deyib.

# Birinci vitse-prezidentlik institutunun yaradılması Azərbaycanın müasir simasının yeni və mütərəqqi əlamətidir

***Sirr deyil ki, Azərbaycanda institusional sferanı, idarəetmənin təkmilləşdirilməsini, daha çevik və səmərəli komandanın formalaşmasını, demokratik dəyişikliklərə hüquqi əsaslar yaradılmasını özündə ehtiva edən siyasi islahatlar aparılır. Müasirləşməni strateji hədəf seçən Azərbaycan idarəetmə sahəsində reallaşdırılan islahatlarda da qabaqcıl ölkələrin təcrübəsinə istinad edir. Dövlət idarəçiliyini bir dəfə qurulan və heç vaxt dəyişməyəcək mexanizm kimi təsəvvür etmək əsla düzgün deyil. Qloballaşma şəraitində isə belə yanaşma zərərlidir, milli maraqlara, təhlükəsizliyin təmin olunmasına təhdidlər yaradır.***



Zaman ötdükcə, yeni reallıqlar yarandıqca qarşıya çıxan tələblər də dəyişir. Ölkəmizdə reallaşdırılan institusional islahatlar da milli idarəetmə sisteminin dövrün dəyişən tələblərinə uyğun qurulmasını özündə ehtiva edir. Bütövlükdə idarəetmə sisteminin səmərəli qurulması öz növbəsində ölkənin qarşıya qoyulan yeni hədəflərə doğru inamla irəliləməsini və yeni nailiyyətlər qazanmasını şərtləndirir. Aparılan islahatlar institusional təsissatların, müvafiq dövlət qurumlarının daim dəyişən çağırışlara adekvat addımlar atmaq iqtidarında olmasına münbit zəmin yaradır. Məhz, 2016-cı il sentyabrın 26-da respublikamızda Konstitusiya islahatları ilə bağlı keçirilən referenduma əsasən dövlət idarəçiliyində yeni təsisatın - Birinci vitse-prezidentlik institutunun yaradılması böyük aktuallıq daşıyırdı. Beləliklə də, dövlət idarəçiliyində funksional vahid kimi Birinci vitse-prezidentlik institutunun yaradılması Azərbaycanın müasir simasının yeni və mütərəqqi bir əlamətidir.



*Bəhruz QULİYEV,*
*"Səs" qəzetinin Baş redaktoru,*
*siyasi ekspert*

## Bəs, vitse-prezidentlik institutu nədir?

Vitse-prezidentlik elmi baxımdan iki mühüm istiqaməti əhatə edə bilir: birincisi, dövlət rəhbərinin müəyyən məqamlarda əvəz olunması, səlahiyyətlərinin icrasını həyata keçirmək; ikincisi, səlahiyyətlərin rəhbər-köməkçilər kimi bölünməsini təmin etmək. Anlayışın elmi əsasları onu deməyə əsas verir ki, vitse-prezidentlər prezidentin öz vəzifəsini icra edə bilmədiyi hallarda onun vəzifə səlahiyyətlərini icra edən şəxslərlə yanaşı, konstitusion səlahiyyətlərinin həyata keçirilməsi üzrə köməkçi rəhbər şəxslərdir. Bu yanaşma həm də məfhumun təyinatı funksiyasını şərtləndirir. Elmi tərkib onu deməyə əsas verir ki, onlar hakimiyyət qolları üzrə prezident səlahiyyətlərinin icrası ilə məşğul ola bilərlər.

Vitse-prezidentlik institutunun fəlsəfi anlayışının iki baza xətti mövcuddur: hakimiyyətin ali pilləsində siyasi idarəçilikdə rəngarəngliyin formalaşdırılması və ali idarəçiliyin dərinləşdirilməsi və şaxələndirilməsi-şaquli və üfiqi iyerarxiyanın həm sadələşdirilməsi, həm də çoxçalarlı olması. Hər iki xətt vəhdətlik yaradır, bütövlüyü və möhkəmlənməni təmin edir. Vitse-prezidentlik dövlət idarəçiliyində mövcud olan daxili piramidaların birləşməsindən yeni məzmunlu ali piramidaları meydana gətirən şərtləndirici dayaq elmenti rolunu oynayır. Vitse-prezidentlik sayəsində pikdə birləşən piramidaların sayı artır və həm də böyümüş formada olur. Vitse-prezidentlik yeni piramidal xətlərin meydana gəlməsini və həcmcə daxili iri piramidaları yaradır.

Təsadüfi deyil ki, bu yolu illər öncə keçən Amerika Birləşmiş Ştatları, Cənubi Afrika Respublikası, bəzi Avropa və Latın Amerikası ölkələri dövlətin cəmiyyətin həyatında daha fəal iş aparmaq üçün məhz vitse-prezidentlik instutuna müraciət ediblər. ABŞ-da və Bolqarıstanda hətta vitse-prezidentlər seçki yolu ilə müəyyənləşirlər. Hər bir prezidentliyə namizəd işləmək istədiyi vitse-prezidentin də namizədliyini irəli sürür. Prezident və vitse-prezident seçildikdən sonra dövlət idarəçiliyini həyata keçirirlər. Lakin bu vitse-prezidentlərin prezidentin siyasətinə qarşı çıxmaq hüququ yoxdur. İsveçrə Konfederasiyasında da prezidentlə və vitse-prezident seçilir, lakin federal məclis tərəfindən.

İdarəçilik sahəsində mütərəqqi sistem olaraq qəbul edilən vitse-prezidentlik institutu Azərbaycanda da formalaşdırılıb. Artıq tarixə dönən 2017-ci il referendum yolu ilə təsdiqlənən Konstitusiya islahatlarının reallaşdırılması istiqamətində mühüm il olub. Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı müvafiq Sərəncama əsasən Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunub. Təhlükəsizlik Şurasının iclasında Birinci vitse-prezidenti təqdim edən Prezident İlham Əliyev deyib: "Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır".

Ötən dövrdə Birinci vitse-prezidentin komandası formalaşıb. Artıq Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Birinci vitse-prezidentlik institutu funksional təsisat kimi uğurla fəaliyyət göstərir. Ötən qısa müddətdə əldə olunan uğurlar təsdiqləyir ki, Birinci vitse-prezidentlik institutu idarəetmənin çevikliyini və səmərəliliyini artırıb. Təbii ki, burada Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xarizması, yüksək idarəçilik təcrübəsi mühüm rol oynayıb. Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında Mehriban xanım Əliyevanın malik olduğu yüksək keyfiyyətlərə diqqət çəkib: "Qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır".

Qeyd etmək yerinə düşər ki, Azərbaycan cəmiyyəti Mehriban Əliyevanın ölkənin Birinci vitse-prezidenti vəzifəsində çoxşaxəli fəaliyyətinə böyük maraq göstərib. İnsanlar inandıqları, etimad bəslədikləri Mehriban xanım Əliyevanın təyinat aldığı yeni məsuliyyətli vəzifədə Azərbaycan naminə fədakar fəaliyyətini təqdir edirlər. Mehriban xanım Əliyeva mütəmadi olaraq cəmiyyətin həssas təbəqələrinin problemlərini həll etməyə, ana nəvazişinə ehtiyac duyan uşaqları sevindirməyə, zəngin mədəniyyətimizi təbliğ etməyə, müxtəlif istiqamətlərdə yeni layihələr reallaşdırmağa böyük səy göstərir. Yeni funksional təsisatın rəhbəri vəzifəsində gördüyü bu kimi genişmiqyaslı işlər isə cəmiyyətdə onun nüfuzunu daha da artırıb.

Ümumiyyətlə, Azərbaycanın Birinci vitse-prezidenti və birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da böyük rəğbət və nüfuz qazanıb. Bunun səbəbi təkcə tutduğu yüksək vəzifə və mövqe ilə bağlı deyil. Onu köməyə və qayğıya ehtiyacı olan insanların, xüsusilə uşaqların yanında tez-tez görmək olar. Talassemiyalı uşaqlar, erməni işğalı nəticəsində yurd yerindən didərgin salınmış məcburi köçkünlər

# Birinci vitse-prezidentlik institutunun yaradılması Azərbaycanın müasir simasının yeni və mütərəqqi əlamətidir

Mehriban Əliyevaya pənah yeri kimi baxır və öz ümidlərində yanılmırlar.Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunmasının 3-cü ili tamam olacaq.

Ötən üç ildə Birinci vitse-prezident Mehriban Əliyeva dövlət başçısının və ona ümid bəsləyən insanların etimadını layiqincə doğruldub. O, əsas diqqətini sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirib. Mehriban xanım Birinci vitse-prezident kimi ilk müşavirəsini Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etdi. Müvafiq qurumlar qarşısında məsələni belə qoydu ki, bu sahədə işlər iki istiqamətdə qurulmalıdır: yeni mənzillər, yeni binalar tikilməli və inşa olunan binalar keyfiyyət standartlarına tam cavab verməlidir. İlkin mərhələdə dörd min köçkün ailəsini yeni mənzillə, həmçinin iş yerləri ilə təmin etmək vəzifəsi qarşıya qoyuldu.

Çox keçmədən Lökbatan qəsəbəsində məcburi köçkünlər üçün 1026 mənzildən ibarət müasir yaşayış kompleksinin təməli qoyuldu. Daha sonra qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsinin icrası çərçivəsində onlara Abşeron rayonunun Masazır və Mehdiabad qəsəbələrində yeni mənzillər verildi. İş adamlarının yardımı ilə 214 ailə yeni inşa olunmuş və tam təmirli mənzillərə köçürüldü. Bir qədər sonra Masazır, Ramana qəsəbələrində və Xətai rayonunda yeni binaların istifadəyə verilməsi ilə daha 725 məcburi köçkün ailəsinin mənzil şəraiti yaxşılaşdırıldı. Bu, Birinci vitse-prezidentin rəhbərliyi və təşəbbüsü ilə görülən işlərin heç də tam siyahısı deyil.

Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dövlətin təhsillə bağlı strategiyasının həyata keçirilməsində yaxından iştirak edir. Fondun bu sahədə gördüyü işlər sırasında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının müstəsna əhəmiyyəti var. 2003-cü ildən indiyədək ölkədə 3 mindən çox məktəb tikilib və ya yenidən qurulub, geniş bazaya malik təhsil infrastrukturu yaradılıb. Beləliklə, ölkədə təhsilə qayğı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi işi ümummilli səviyyəyə qaldırılıb.

Azərbaycanda birinci xanım institutu faktiki olaraq İlham Əliyev Prezident seçildikdən sonra formalaşıb. Dövlət başçısının xanımı Mehriban Əliyeva uzun illərdir ki, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir, çiynini sosial problemlərin yükü altına verir, bir çox qlobal tədbirlərin təşkilatçılığını cəsarətlə üzərinə götürür. Biz onu hadisələrin mərkəzində, insanların arasında görməyə adət etmişik. Mehriban Əliyevanın birinci xanım missiyasına yanaşması onun təbiətindən və xarakterindən doğan bir yanaşmadır. O, həyatının mənasını Vətənə, xalqa və insanlara xidmətdə görür.

Bütün bunlara görə də Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunması cəmiyyətdə məntiqi qərar kimi qarşılandı. Bundan bir neçə gün sonra "Rossiya 1" telekanalının "Vesti nedeli" proqramına müsahibəsində yeni təyinatın üzərinə qoyduğu böyük məsuliyyət barədə danışan Mehriban Əliyeva deyirdi: "Mən Prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam". Elə bu məramla da özünün ömür kitabını yazır, hər ötən il isə bu kitabı daha parlaq, daha şərəfli sətirlərlə zənginləşdirir. Mehriban xanımın təşəbbüsü, dəstəyi ilə həyata keçirilən çoxsaylı və irimiqyaslı layihələr böyük rezonans doğurur. Təhsil, səhiyyə, mədəniyyət sahəsində müxtəlif layihələrin reallaşdırılması bu sahələrin inkişafına misilsiz töhfələr verir. Ötən müddətdə onun dəstəyi ilə yüzlərlə məktəb, xəstəxana tikilib. Saysız-hesabsız xeyriyyəçilik tədbirləri isə onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunu şəfqət və mərhəmət ünvanına çevirib.

Fondun mədəniyyətimiz, incəsənətimizlə bağlı layihələri isə mənəvi, tarixi, mədəni irsimizin qorunması işində müstəsna rola malikdir. Azərbaycanın birinci xanımı ölkəmizdəki qədim tarixi abidə və ziyarətgahların, məscid və ibadətgahların, dini abidələrimizin bərpası və yenidən qurulması, abadlaşdırılması istiqamətində misilsiz xidmət göstərir. Müstəqillik tariximizin əlamətdar hadisələrini, ölkəmizin böyük uğurla ev sahibliyi etdiyi birinci Avropa Oyunları, eləcə də IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat komitələrinin sədri kimi fədakar fəaliyyəti Mehriban Əliyevanı xalqının gözündə bir daha ucaldıb.

Birinci vitse-prezident Mehriban Əliyevanın 2016-cı il Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabitləri ilə görüşü, döyüşlərdə yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi barədə tapşırıq verməsi indi də minnətdarlıq hissi ilə xatırlanır. Bu, bir daha göstərir ki, onun Vətənə xidmət fəlsəfəsinin təməlində, fəaliyyətinin əsasında mənsub olduğu xalqa, millətə sevgi dayanır. O, əzmkar fəaliyyətini həm də sivil dünyada sülhün, sabitliyin, sivilizasiyalararası dialoqun, bir sözlə, insanlığın tərəqqisinə yönələn ali ideyaların reallaşdırılmasına, bu sahələrdə səylərin birləşdirilməsinə yönəldib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın humanitar layihələri sərhəd tanımır, xeyriyyəçilik tədbirləri bir sıra ölkələri, qitələri əhatə edir. Pakistanda qızlar üçün yeni məktəbin tikintisi, İslamabadda, eləcə də Pakistanın digər əyalətlərində silsilə humanitar aksiyalar bu sıradandır. Versal sarayının bir hissəsinin və Strasburqda orta əsrlərə aid kilsənin, Luvr muzeyi qalereyasından birinin, Roma katakombalarının bərpası, Həştərxanda Azərbaycan-Rusiya dostluq körpüsünün tikilməsi, Müqəddəs Mələksima Knyaz Vladimirə Rusiyada ilk abidə ucaldılması və digər layihələr Heydər Əliyev Fondunun xeyriyyəçilik işlərinin heç də tam olmayan siyahısıdır. Onun rəhbəri olduğu Fond uzun illərdir ki, Azərbaycanın humanitar və mədəni diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilib və bu fəaliyyət hər şeydən əvvəl dünyada Azərbaycanın təqdimatı və Azərbaycanın təbliğidir.

Təsadüfi deyil ki, beynəlxalq ictimaiyyət Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı Cənubi Qafqazın ən nüfuzlu xanımı kimi səciyyələndirir, onun Şərq ölkələrində siyasətin yalnız kişi işi olması barədə stereotipi dağıtdığını etiraf edirlər. Təltif olunduğu çoxsaylı nüfuzlu beynəlxalq mükafatlar - Rusiyanın "Dostluq" ordeni, Fransanın "Şərəf legionu" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı, Rusiyanın Yüzillik Messenatları Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordeni, II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni onun dünyadakı nüfuzunun göstəricisidir. Bu təltiflərin hər birinin arxasında bilik, ağıl və iradə, peşəkarlıq və təcrübə, prinsipiallıq və xeyirxahlıq, ən əsası xalqına, dövlətinə, insanlığa, bəşəriyyətə sevgi dayanır. Onun ən böyük mükafatı isə Azərbaycan xalqının rəğbəti və sevgisidir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva siyasi karyerası və ictimai fəaliyyəti dövründə başladığı bütün işlərin öhdəsindən böyük məharətlə və ustalıqla gəlir. Hər kəs inanır ki, Mehriban xanım hazırda qüdrətli, nüfuzlu dövlətə çevrilmiş Azərbaycanın gələcək inkişafı, xalqımızın firavanlığı naminə çoxşaxəli fəaliyyətini bundan sonra da əzmlə davam etdirəcək.

## NATO Marşalı: "Azərbaycan Alyansın etibarlı tərəfdaşıdır"



***Noyabrın 26-da Azərbaycan Respublikası Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan NATO-nun Hərbi Komitəsinin sədri, Aviasiya Baş Marşalı Ser Stüart Piiçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan ilə Şimali Atlantika Alyansı arasında 25 illik dayanıqlı əməkdaşlıqdan danışan Müdafiə naziri bu əlaqələrin inkişaf etdiyini, Azərbaycan Ordusunun müxtəlif proqramlar çərçivəsində fəaliyyətini və ölkəmizin Əfqanıstandakı "Qətiyyətli Dəstək" Missiyasına verdiyi töhfəni qeyd edib.***

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Z.Həsənov NATO-nun ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə verdiyi siyasi dəstəyi xatırladaraq bunun ümumilikdə Avroatlantik məkanda təhlükəsizliyin möhkəmlənməsinə, eləcə də regional sülhə və sabitliyə xidmət etdiyini nəzərə çatdırıb, Alyansın bundan sonra da bu istiqamətdə səylərinin davam edəcəyinə əminliyini ifadə edib.

Öz növbəsində Aviasiya Baş Marşalı Ser Stüart Piiç Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu qeyd edərək ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda göstərilən peşəkarlığı yüksək qiymətləndirib, Alyansın bir çox proqramlarında Azərbaycan hərbçilərinin fəal iştirakını, habelə NATO-nun müxtəlif qərargahlarında xidmət edən zabitlərimizin hazırlıq səviyyəsini xüsusi vurğulayıb.

Aviasiya Baş Marşalı Ser Stüart Piiç NATO-nun Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəklədiyini bildirərək Alyansın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu diqqətə çatdırıb. Qonaq səmimi qəbula və göstərilən qonaqpərvərliyə, həmçinin Bakıda Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşün keçirilməsi üçün yaradılan şəraitə görə Azərbaycan dövlətinin rəhbərliyinə minnətdarlığını bildirib.

## Rumıniyanın "AmosNews" xəbər agentliyi "ASAN Viza" sistemi barədə məqalə yayıb


Aflati odata cu noi!
AMOS NEWS
AGENTIE INDEPENDENTA DE PRESA
Home | Flux ştiri | Agendă | Editoriale | Diplomaţie | Guvern | Parchet | Parlament | Preşedinţie | Servicii secrete | Administraţie centrală | ONG | Evenimente | Economie | Ecologie | Administraţie locală | Criminalitate | Internaţional | Educaţie | Mass Media | Societate | Politica
HOT Târgul de carte Gaudeamus Radio România, Bucureşti 2019 Bilanţul final al ediţiei
SUNTEŢI AICI: ACASĂ / ASAN VISA
Publicat: 26 Noiembrie, 2019 - 07:46
ASAN Visa - Vizitarea Azerbaidjanului nu a fost niciodată atât de uşoară
Like 0
Baku, 5 noiembrie, AZERTAC. Cu planuri ambiţioase de a deveni una dintre cele mai importante destinaţii de călătorie din lume, Azerbaidjanul implementează proiecte în afara bătăilor pentru a atrage mai mulţi vizitatori în fiecare an. A fost semnat un decret prezidenţial al Republicii Azerbaidjan privind facilitarea procedurii administrative de obţinere a unei intrări unice e-Visa, valabilă timp de 30 de zile pe durata a 90 de zile. Iniţial, numărul de ţări eligibile a fost determinat la 81, care ajunge până la 94 din noiembrie 2019.
Odată cu lansarea noului sistem de vize online, Azerbaidjanul şi-a deschis frontierele pentru turişti. Aceasta este urmată de predarea vizelor şi la sosirea la ASAN Visa. Visa la sosire se eliberează în 3 minute la Aeroporturile Internaţionale din Republica
ARTICOLE SIMILARE
- Arta de a obţine viză Schengen (en)
- Azerbaidjan intenţionează să creeze un parc industrial destinat turismului
- Succesiunea în politică: 26 de ani care au schimbat faţa şi încrederea Azerbaidjanului
- Vizele turistice şi de Business B1 si B2 sunt gratuite, conform Departamentului de Stat
- Turiştii barbosi nu sunt primiti in Georgia
- Relaţiile dintre Uniunea Europeană şi Statele Unite, în perspectiva noilor reguli de viză
- Aveţi nevoie de viza pentru America? Nu vă faceţi mari speranţe
- Ţările în care turiştii LGBT sunt consideraţi criminali
- Milano Expo 2015 în criză (en)
- Pilot american prins ca introducea in tara 200.000 $ nedeclarati
- Reforma vizei SCHENGEN: statele membre cer urgent progrese

Rumıniyanın "AmosNews" xəbər agentliyi AZƏRTAC-a istinadən rumın dilində "ASAN Viza" sistemi barədə məqalə yayıb. Məqalədə ölkəmizin turizm sahəsində mühüm nailiyyətlər əldə olunduğu qeyd olunub. Azərbaycanda qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası istiqamətində turizm sahəsinə xüsusi diqqət ayrıldığı bildirilib. Rəqabətqabiliyyətli inkişaf üçün iqtisadiyyatın müxtəlif sahələrində aparılan iqtisadi islahatlar turizm sahəsinin inkişafına öz töhfəsini verməkdədir. "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2016-cı il 1 iyun tarixli Fərmanı ölkəyə giriş-çıxışın sadələşdirilməsi turizmə dəstək verən ən mühüm addımlardan biridir. Bununla da, Azərbaycana gəlmək istəyən əcnəbi turistlər tez bir zamanda viza əldə edib, ölkəmizin gözəl guşələri ilə tanış olmaq imkanı əldə ediblər. Məqalədə "ASAN Viza" sistemindən istifadə qaydaları, rahatlığı barədə geniş məlumat verilib.

# İsa Həbibbəyli: “Yeni büdcə təhsilimizin davamlı və dinamik inkişafına öz böyük töhfələrini verəcək”



“Azərbaycan dövlətinin inkişafı və tərəqqisi ilbeil daha da güclənir və sürətlənir. Əldə edilən nailiyyətlər ölkəmizin istər regionda, istərsə də beynəlxalq aləmdəki nüfuzunu daim yüksəldir”. Bu fikirləri “SƏS” qəzetinə açıqlamasında millət vəkili, AMEA-nın vitse-prezidenti, akademk İsa Həbibbəyli 2020-ci il üçün qəbul olunmuş büdcə layihəsini şərh edərkən deyib. Onun sözlərinə görə, ümumiyyətlə, Prezident İlham Əliyev Cənabları tərəfindən müəyyənləşdirilən və bilavasitə Onun iradəsinə söykənən, eləcə də, xalqın maraqlarına cavab verən inkişaf strategiyası növbəti uğurlara doğru açılan yoldur. İ.Həbibbəyli qəbul olunmuş yeni dövlət büdcəsinin bir sıra əhəmiyyətləri barədə danışarkən, bildirib ki, ölkəmizdə aparılan sosial-iqtisadi islahatların əsas məqsədi dayanıqlı iqtisadi inkişaf modeli qurmaq, qeyri-neft sektorunu inkişaf etdirmək, sosial qayğı və dəstəyi artırmaqdır.

Millət vəkilinin sözlərinə görə, büdcənin gəlir hissəsində artımın, müstəsna olaraq, qeyri-neft və vergi gəliri hesabına formalaşması, bu sahədə şəffaflıq və etimad mühitinin yaranması, eyni zamanda, büdcə xərclərinin 38,5 faizinin sosial sahəyə ayrılması, bu tədbirlərin davamı üçün büdcədə əlavə ehtiyatlar nəzərdə tutulur: “Eləcə də, iqtisadi aktivliyin və yeni iş yerlərinin açılması üçün vəsaitlərin nəzərdə tutulması 2020-ci ilin dövlət büdcəsinin Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uğurlu, məqsədyönlü və praqmatik sosial-iqtisadi islahatları özündə əks etdirdiyini deməyə kifayət qədər zəmin yaradır. Belə ki, gələn ilin büdcəsi bütün sahələri əks etdirir. Məhz bu baxımdan da, millət vəkili hesab edir ki, ölkədə aparılan uğurlu iqtisadi islahatlar birinci oxunuşdan qəbul edilən büdcənin tərtibində də öz əksini tapıb. Belə ki, büdcə sistemi haqqında qanuna edilən dəyişikliklər, yeni büdcə xərclərinin təsnifatı və s. faktorkar da qeyd edilən amillərə söykənir. O cümlədən, büdcədə təhsil sisteminə də geniş yer verilib və göstərilən rəqəmlər bunu deməyə əsas verir. “2020-ci il üçün dövlət büdcəsindən təhsil xərclərinə 3155,8 milyon manat vəsait ayrılıb ki, bu da, 2019-cu ilə nisbətən 873,6 milyon manat və ya 38,3 faiz çoxdur” deyə qeyd edən İ.Həbibləyli əlavə edib ki, 2020-ci ildə təhsil xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 11,7 faiz təşkil edəcək. Bu da, 2019-cu ilə nisbətən 2,6 faiz-bənd çoxdur: “Təhsil xərclərinin növbəti il üçün proqnozlaşdırılan ÜDM-də xüsusi çəkisi 3,8 faiz olacaq ki, bu da, 2019-cu illə müqayisədə, müvafiq olaraq, 0,9 faiz-bənd çoxdur. Həmçinin, təhsil xərclari üçün ayrılan vəsaitin 507,8 milyon manatı və ya 16,1 faizi bu sahə üzrə müvafiq dövlət proqramlarının və tədbirlərinin maliyyələşdirilməsinə yönəldiləcək. Bütün bu gerçəkliklər, həm də belə bir faktoru əhatə edir ki, ölkə başçısı Azərbaycanda təhsilin ən ali səviyyədə inkişafı üçün strateji inkişaf konsepsiyası müəyyənləşdirib və 2020-ci ilin büdcəsində göstərilən rəqəmlər digər sahələri də əhatə etməklə, təhsilimizin davamlı və dinamik inkişafına öz böyük töhfələrini verəcək”.

**RƏFİQƏ KAMALQIZI**



# “Səfər Azərbaycan-Rusiya əməkdaşlığını gücləndirəcək”

“Azərbaycan-Rusiya münasibətlərinin hazırda artan dinamika üzrə inkişaf sürəti əldə edərək yeni mərhələyə çıxdığını söyləməyə yetərli əsaslar var. Bu münasibətlərin bütün regionun taleyini həll edən faktora çevrildiyini indi bütün qüvvələr başa düşür”. Bu fikirləri SİA-ya açıqlamasında “Bakı Xəbər” qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib. O bildirib ki, Azərbaycan-Rusiya münasibətləri regionumuzda əsas sülh, təhlükəsizlik, inkişaf və rifah mənbəyinə çevrilib. A.Quliyev söyləyib ki, bu mənada atılan hər addım, o cümlədən Mehriban xanım Əliyevanın Moskvadakı görüş və müzakirələrinin yekunlarını bütünlükdə regional vəziyyətə necə təsir göstərmək kontekstində nəzərdən keçirmək lazımdır: “Mehriban xanım Əliyevanın səfərinə Rusiyanın özündə də göstərilən böyük maraq sübut edir ki, bu ölkənin elitası da Azərbaycan-Rusiya münasibətlərinin gücünə xüsusi önəm verir”. Ekspert vurğulayıb ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın apardığı müzakirələr bugünkü Azərbaycan-Rusiya gündəminin bütün mənzərəsini sözsüz ki, əhatə etdi: “Lakin bundan daha artıq qeyd edilməli olan odur ki, ikitərəfli münasibətlərin inkişafının yeni imkan və istiqamətlərinin reallaşmasına daha münbit şərait açıldı. Diqqət etdinizsə, Rusiya mediasının sualları arasında Mehriban xanımın Rusiya-Azərbaycan münasibətlərinin hansı istiqamətlərində daha üstün perspektivlər gördüyünə ayrıca diqqət verilirdi. 2024-cü ilə qədər dövr üçün iki ölkənin əməkdaşlıq planları 5 yol xəritəsini əhatə edir. Bunlar ticarət, birgə müəssisələr, vergi, humanitar və digər mühüm sahələri əhatə edir. Proseslər göstərir ki, Mehriban xanım Əliyevanın səfəri Azərbaycan-Rusiya əməkdaşlığının gündəmini əsaslı şəkildə zənginləşdirmək gücündədir”.

Baş redaktorun fikrincə, sözsüz ki, iki ölkənin əməkdaşlığına dair yol xəritələrinin həm məzmunu, həm də sayı zənginləşəcək, yeni yol xəritələrinin yaranma ehtimalı da çox realdır: “Xüsusilə iki ölkənin qeyri-neft sektorunda əməkdaşlığı, aqrar, ticarət, turizm, humanitar və elmi texnologiyalar sahəsində əməkdaşlığda mühüm proseslər başlayacaq”.

A.Quliyev qeyd edib ki, Azərbaycanın Rusiyaya aqrar məhsullar ixracında əsl sıçrayışlar gözlənilir: “Hazırkı 600 milyon dollarlıq aqrar ticarətin həcmi xeyli artacaq. Turizm sahəsində əməkdaşlığın ikiqat artım imkanları var. Ən mühüm inkişaf sözsüz ki, humanitar, mədəni sferada gözlənilir. Mehriban xanım Əliyeva indiyə qədər də bu sahədə böyük işlər görüb. Bu o deməkdir ki, Birinci xanım humanitar əməkdaşlığın iki ölkə arasında strateji təsir gücünə malik olduğuna lazımi qiyməti verə bilir. Yaxın tarixdə gördük ki, iki ölkənin əlaqələri bəzən iqtisadi, ticarət, hərbi sahədə nisbətən zəifləyəndə humanitar-mədəni əlaqələr bu münasibətlərin yenidən bərpa olunmasında və inkişafa başlamasında əsl detonator rolunu oynayıb. Sovet İttifaqı dağılanda bu iki ölkənin iqtisadi-ticarət əlaqələri demək olar ki ,tam qırılmışdı. Lakin humanitar sahədə az da olsa mövcudluğunu saxlayan eyni dəyərlərə hörmət başqa sahələrdə qırılmış əlaqələri bərpa etdi. Mehriban xanımın Azərbaycan-Rusiya münasibətlərində humanitar, mədəni əməkdaşlığa böyük önəm verməsi o deməkdir ki, iki ölkənin bütün sahələrdə dinamik inkişafının gələcəyi böyük təminat altındadır. Humanitar əlaqələr dərin deyilsə, xalqlar bir-birini başa düşüb dəyər vermirsə, əslində başqa sahələrdə əməkdaşlıqdan danışmaq mümkün deyil. Mehriban xanımın Rusiya səfərinin mühüm strateji mesajlarından biri budur”.

**Nailə Məhərrəmova**

# Tural Gəncəliyev: Yumşaq gücdən istifadə etməklə Azərbaycan həqiqətlərini dünyaya çatdırmalıyıq



Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının sədri Tural Gəncəliyevin başçılıq etdiyi nümayəndə heyəti ABŞ-ın Los-Anceles və Türkiyənin paytaxtı Ankara şəhərində səfərdə olub və bir sıra görüşlər keçirib. AZƏRTAC xəbər verir ki, noyabrın 26-da Tural Gəncəliyev səfərlər çərçivəsində keçirilən görüşlərlə bağlı mətbuat konfransı keçirib.

Los-Anceles və Ankara şəhərlərinə səfərlərin mühüm əhəmiyyət kəsb etdiyini bildirən Tural Gəncəliyev deyib: “Bu, icmamızın beynəlxalq miqyasda ilk xarici səfəridir. Dağlıq Qarabağın Azərbaycan icmasının üzvləri Gülməmməd Məmmədov, Ceyhun Ələkbərov və Xocalı soyqırımının şahidi Dürdanə Ağayeva ilə birlikdə erməni diasporunun özləri üçün paytaxt adlandırdıqları Los-Anceles şəhərində olduq, Ankaraya səfər etdik. Bu şəhərlərdə yerli ictimai-siyasi dairələrlə, tədqiqat və beyin mərkəzləri ilə görüşlər keçirdik. Los-Anceles şəhərində yəhudi, Pakistan və türk icmaları ilə görüş və dialoqlarımız oldu. Düşünürəm ki, bu icmaların resurslarından yararlanmalıyıq. Ankarada Türkiyənin aparıcı beyin mərkəzlərində görüşlərimiz zamanı bu mərkəzlərlə əməkdaşlığın perspektivləri, birgə layihələr, konfransların təşkili barədə müzakirələr aparıldı.

Biz görüşlərimizdə iştirakçılara Azərbaycanın ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğalı, bu təcavüzün ağır nəticələri barədə məlumat verdik. Həmçinin Xocalı soyqırımının şahidi Dürdanə Ağayeva Holokostu yaşamış 92 yaşlı Coşua Kaufman ilə görüşündə 8 gün erməni əsirliyində başına gətirilən müsibətlərdən danışdı”.

İnsan faktorunun, insan hüquqlarının müdafiəsinin çox mühüm amil olduğunu qeyd edən Tural Gəncəliyev Qərbdə statistikanın bir o qədər də maraqlı olmadığını bildirib. Burada insanın yaşadıqlarına, onun hekayəsinə qulaq asmağı daha çox xoşlayırlar. Biz yumşaq gücdən istifadə etməklə Azərbaycan həqiqətlərini dünyaya çatdırmalıyıq.

# Azərbaycan 2020-ci ildə turistlər üçün dünyanın ən təhlükəsiz ölkələri sırasındadır



Yeni ildə səyahət etməyi planlaşdıranlar üçün dünya üzrə illik risk xəritəsi tərtib olunub. AZƏRTAC CNN telekanalına istinadla xəbər verir ki, “International SOS” səyahət təhlükəsizliyi xidmətləri şirkətinin apardığı tədqiqatlar üzrə tərtib olunmuş xəritədə Azərbaycan turistləri üçün risklərin minimum olduğu ölkələr sırasındadır. Xəritənin hazırlanmasında tibbi və səyahət təhlükəsizliyi riskləri, habelə infeksiyalı xəstəliklər və siyasi sabitlik amilləri nəzərə alınıb. Risklərin ən az olduğu ölkələr siyahısına əksərən şimal dövlətləri - Danimarka, Finlandiya, Qrenlandiya, İslandiya, Norveç, Sloveniya, Birləşmiş Krallıq, ABŞ, Kanada, Çin, Lüksemburq və İsveçrə başçılıq edirlər. Daha riskli ölkələr isə Əfqanıstan, Mərkəzi Afrika Respublikası, Somali və Suriya elan edilib.

Xəritədə Latın Amerikası ölkələri orta risk dərəcəsi olan ölkələr kimi qeyd olunub. Məsələn, Meksika və Kolumbiya səyahətçilərin təhlükəsizliyi baxımından bu qəbildəndir. “International SOS” şirkətinin sözçüsü CNN-ə müsahibəsində bildirib ki, xəritənin hazırlanmasında onun müştərilərinin rəyləri əsas götürülüb. O, turistlərə və turizm şirkətlərinə məsləhət görüb ki, xəritədəki məlumatlardan istifadə etsinlər.

# Azərbaycanın ən çox məhsul aldığı İƏT-ə üzv ölkələrin ilk üçlüyündə Türkiyə, İran və Qazaxıstan qərarlaşıb



Azərbaycanın bu ilin 10 ayında ən çox məhsul idxal etdiyi İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələr sırasında ilk üçlükdə Türkiyə, İran və Qazaxıstan qərarlaşıb. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a bildirilib ki, Türkiyədən idxalın dəyəri 1 milyard 326 milyon 828 min dollar, İrandan 391 milyon 689 min dollar, Qazaxıstandan isə 170 milyon 93 min dollar təşkil edib. Azərbaycan ötən ilin müvafiq dövrünə nisbətən hər üç ölkədən idxalı artırıb. Türkiyədən idxalın dəyərində 17 milyon 172 min dollar, İrandan 90 milyon 534 min dollar, Qazaxıstandan isə 27 milyon 827 min dollar artım müşahidə olunub.

# “ASAN xidmət”dən qadın şiddətinə qarşı sosial mesaj



“ASAN xidmət” Qadın Zorakılığına qarşı Beynəlxalq Mübarizə Günündə “#zorakiligaqarsibirlikde” sosial aksiyasını təşkil edib. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, “ASAN xidmət”də şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi xidmətinə müraciət edən vətəndaşlara öz fotoları əvəzinə şiddətə məruz qalmış qadın fotosu göstərilib. Yaradılmış qadın obrazı şərti olub və izlər vizual effektlər ilə əlavə edilib. Vətəndaşlar əvvəlcə fotonu, daha sonra isə onlar üçün olan mesajı görüblər.

# Erməni xalqı bəlalar burulğanında



***Belə bir atalar sözü var, "adamın özünə etdiyini, kimsə ona edə bilməz". Erməni xalqı da Nikol Paşinyan adlı küçə təfəkkürlüsünü baş nazir kreslosuna gətirməklə, başlarına bəla gətirdi. Hakimiyyətə yalan vədlər verməklə gələn Nikol Paşinyan verdiyi vədlərin nə olduğunu, bu gün də xatırlaya bilmir. Çünki yalan danışan, heç vaxt əvvəl dediyi sözü yadında saxlaya bilmir. Bu, təəccüb doğurmur. Küçə təfəkkürlü küçə "demokratı" siyasətin mənasını anlamadığı üçün sərsəm "bəyanatlar" verməklə, elə zənn edir ki, Ermənistanda hakimiyyətdə olanlardan daha "artıq siyasi təcrübəyə malikdir". Ancaq anlamır ki, başını cəngələ salmaqla yanaşı, oturduğu "kresloya" "əlvida!" deməyin ömrünü qısaldır.***



İstər hakimiyyətdə odluğu müddətdə, istərsə də deputat olduğu zamanlarda dediyi fikirlərə diqqət yetirsək, bir daha görərik ki, bu quduzlaşmış faşist xislətli Paşinyan bütün dövrlərdə verdiyi vədinə xilaf çıxıb. Bu yerdə, N.Paşinyanın hələ deputat olanda, Ermənistan Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov bir dəfə parlamentdə çıxışında bəyan etmişdi ki, "satqınlığın əsasında yalan durur. Və bu yalanı dilinə gətirən insan, heç kimi yox, özünü aldadır". Bu sözləri özünün "faceboook" səhifəsində Ermənistan Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov yazıb. Daha sonra isə, baş nazirin verdiyi bəyanatların, vədlərin yalan olduğunu bildirib: "Məsələn, Paşinyan deyirdi ki, vendetta olmayacaq - amma var. Paşinyan ümumi birlik vəd edirdi. Lakin cəmiyyəti "ağlara" və "qaralara" böldü. Məhəbbət və razılıq əvəzinə, nifrət aşılamağa başladı. Bundan əlavə, pensiyalarla bağlı artım olacağını bildirsə də, indi susmağa üstünlük verir. "Qırmızı xətlərə" qarşı çıxırdı - bu gün isə, onlar mövcuddur. Baş nazir videokameralara qarşı çıxırdı - bu gün isə, onlar hələ də qalır".

Əlavə edib ki, baş nazir dəfələrlə vəd edirdi ki, ölkəyə investisiya axını baş verəcək: "Amma hazırda hər hansı real investisiyadan söhbət gedə bilməz. Bütün sahələrdə inkişaf olacağını bildirirdi. Bu vədin də puç olduğu üzə çıxır. Avropa İttifaqı ilə razılaşmanı təbliğ edirdi, indi isə əksinə, onu tənqid edir. Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik üzrə Müdafiə Təşkilatına üzvlüyə qarşı çıxırdı. Bu gün isə, əksinə, bildirir ki, bu təşkilatlarda qalmaq üçün üz lazımdır".

## Eduard Şarmazanov: "Nikol Paşinyan hakimiyyətə gəlməklə, 2019-cu il işğalçı ölkəyə bahalaşma ilə girdi"

Eduard Şarmazanov onu da bildirir ki, dövlət siyasətindən xəbərsiz olan Nikol Paşinyan hakimiyyətə gəldiyi gündən 2019-cu il işğalçı ölkəyə bahalaşma ilə girdi: "Bu da, səbəbsiz deyildi. Bu, Ermənistanda baş verməli idi. Söhbət Moskvanın siyasi təzyiq vasitələrindən gedir. Belə ki, Nikol fəaliyyətə başladığı ilk gündən başladı Rusiyaya qarşı sərsəm bəyanatlar ünvanlamağa. Rusiya prezidenti Vladimir Putinin Ermənistanın baş naziri Nikola dəfələrlə xəbərdarlıq ismarışları və mesajları göndərməklə, ona bu oyunlardan əl çəkməyi məslə9hət görsə də, Paşinyan yenə də sərsəm bəyanatlar verməkdən çəkinmədi. Belə bir atalar sözü var, "keçinin buynuzu gicişəndə, onu çobanın çomağına sürtər". Elə bu səbəbdən də, V.Putin Ermənistan prezidenti Armen Sarkisyana, üstəlik, Ermənistanın eks-prezidentləri - Serj Sarkisyanı və hazırda həbsdə olan Robert Koçaryanı da təbrik etdi. Beləliklə, Paşinyan hakimiyyətinin kritik günləri başladı".

## Paşinyan 2020-yə baş nazir kimi keçməyəcək

Bu yerdə deyirlər,: "adam özünə etdiyini kimsə, etməz". Bir də kələklə gələn, küləklə gedər. Bu həqiqəti Paşinyan "feysbukda" canlı yayım zamanı eks-prezident Serj Sarkisyan dönəminə aid olan məxfi sənəd haqqında danışarkən, bildirmişdi ki, Ermənistan institusional iflic vəziyyətindədir. Onun ardınca da, qeyd edib ki, əvvəlki illərdə olduğu kimi, 2019-cu il də, Ermənistan üçün son dərəcədə ağır və məyusluqla dolu bir il olmuşdur. 2020-ci ilin ağır keçəcəyi proqnozu verilməkdədir. Belə olan halda, bu faşist xislətli Nikoldan soruşmaq lazımdır: kimdir günahkar? O zaman erməni xalqı bu kimi dələduzlardan niyə qurtulmur? İşğalçı ölkənin bir sıra politoloq və təhlilçiləri bildirirlər ki, Ermənistana rəhbərlik edənlərin hamısı eyni səvviyyəli dələduzlardır. 2016-cı il aprel savaşı Ermənistan ordusundakı böyük qüsurları ortaya çıxardısa, o zaman erməni xalqı N.Paşinyan kimi faşisti hakimiyyətə gətirdi.

Təhlilçilər bildirirlər ki, bu da, erməni xalqının populist çıxışlara inanıb, sabaha ümidlə yaşadıqlarından irəli gəlir və nəticədə, N.Paşinyan kimi dələduzların hakimiyyətə gəlməsi ilə əzabı xalq çəkir. Belə olan halda, erməni xalqı gec də olsa, anlamalıdır ki, düşmən ölkə Azərbaycana qarşı işğalçılıq siyasətinə son qoymalıdır.

Məhz buna görə də, Azərbaycan Prezidenti İlham Əliyev Qarabağla bağlı öz qətiyyətini və ciddiliyini ortaya qoyaraq, dönədönə xəbərdarlığını edir.

## "Dağlıq Qarabağın Azərbaycandan ayrılması mexanizmləri yoxdur və ola da bilməz"

Azərbaycan Prezidenti İlham Əliyev "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bizim xarici siyasətimizin əsas istiqamətidir" deyərək bildirib ki, əfsuslar olsun ki, bütün səylərə baxmayaraq, biz məsələnin həllinə nail ola bilməmişik: "Bunun tək bir səbəbi var - Ermənistanın qeyrikonstruktiv mövqeyi və danışıqlar prosesini süni şəkildə uzatmaq taktikası. Ancaq bu taktikanın axırı yoxdur. Məsələ ancaq beynəlxalq hüquq normaları əsasında öz həllini tapmalıdır. Azərbaycan öz prinsipial, ədalətli və beynəlxalq hüquq normalarına əsaslanmış mövqedən əl çəkməyəcəkdir."

Prezident İlham Əliyev bütün çıxışlarında, bir daha bəyan edir ki, bu gün qarşıda duran əsas məqsəd bütün beynəlxalq təşkiltlarda öz siyasi və diplomatik fəaliyyətimizi daha da gücləndirmək və məsələnin tezliklə həllinə nail olmaqdır. Bu Azərbaycanın dünyanın ən nüfuzlu təşkiltlarında Dağlıq



Qarabağ probleminin müzakirəyə çıxarılmasına, bu məsələ ilə bağlı qərar və qətnamələrin qəbuluna nail olması, aparılan uğurlu xarici siyasətin nəticəsidir. Lakin əsas məqsəd bu qərarların həyata keçirilməsi istiqamətində səyləri artırmaqdır. Dünya həqiqəti görür, haqqı-ədaləti dəstəkləyir, lakin həlledici məqam yetişəndə, tərəddüdlər ortaya çıxır. Daha dəqiq desək, işğalçının adı ilə çağırılması bu gündək dünya üçün mühüm problemə çevrilib. Niyə? Elə bizi düşündürən də bu sualdır. Təkrarən də olsa, bu faktı qeyd etməliyik. 1992-ci ildə Dağlıq Qarabağ probleminin nizamlanması missiyasını yerinə yetirmək məqsədilə ATƏT-in Minsk Qrupu yaradıldı. Həmin vaxtdan 27 il keçir. Həmsədrlərin bölgəyə səfərləri, münaqişəli tərəflərin dövlət başçılarının görüşlərinin təşkil olunmasında göstərdikləri səylər, öz aralında müzakirələr aparmaları və s. məlum olan olaylardır. Amma bu gün xalqımızı maraqlandıran konkret nəticəsidir. Ulu Öndər Heydər Əliyev həmsədrlərin vasitəçilik missiyasına münasibət bildirərkən, daim bu fikri vurğulayırdı ki, bu vəzifə yalnız bölgəyə nəticəsiz səfərlərdən ibarət deyil. Münaqişənin beynəlxalq problemə çevrilməsi həllinin uzanmasında əsas amillərdən biridir. Hər bir dövlət məsələyə öz maraqları baxımından yanaşır və marqların toqquşması problemin həllini uzadır.

"Mən hesab edirəm ki, bizim atdığımız addımlar həm danışıqlar prosesində mövqeyimizin möhkəmlənməsinə, həm də bu məsələlərlə məşğul olan tərəflərin fəallaşmasına gətirib çıxarıbdır" deyən dövlət başçısı İlham Əliyev onu da vurğulayıb ki, bu gün dünyada açıq-aydın dərk edilir ki, bu bölgənin uğurlu inkişafı üçün dondurulmuş münaqişələr öz həllini tapmalıdır: "Bu həll ancaq və ancaq beynəlxalq hüquq normaları və prinsipləri əsasında ola bilər, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır." Prezident İlham Əliyev qeyd edir ki, növbəti beş ildə də ərazi bütövlüyümüzün təmin olunmasına yönəlmiş diplomatik səylər daha da gücləndiriləcək, silahlı qüvvələrin daha çevik idarə edilməsi və texniki təchizatının modernləşdirilməsi sahəsində görülən işlər davam etdiriləcək, ordunun gücü və döyüş qabiliyyəti ardıcıl olaraq artırılacaq, əhalinin, xüsusilə də, gənclərin vətənpərvərlik tərbiyəsi gücləndiriləcəkdir. Güclü ordu potensialı yaradılmaqla, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yaxınlaşdırılır.

Qeyd edək ki, xarici siyasətində iki və çoxtərəfli səviyyələrdə münasibətlərin qurulmasına xüsusi önəm verən dövlətimizin düzgün və tarazlaşdırılmış xarici siyasət aparması respublikamızla həm qonşu dövlətlər, həm də dünyanın digər ölkələri arasında mehriban dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri yaratmışdı. Bu gün Azərbaycan dünya dövlətlərinin əməkdaşlıq etdiyi məkana çevrilmişdi. Bu gün xalqımızın mənafeləri beynəlxalq aləmdə yüksək səviyyədə qorunur, ölkəmiz ən nüfuzlu beynəlxalq təşkilatlarda təmsil olunur. Azərbaycanın artan imkanları, nüfuzu, dünya üçün önəmli ölkəyə çevrilməsi mövqeyini daha da möhkəmləndirir. Prezident İlham Əliyev bildirir: "Biz bundan sonra da Ermənistanı bütün regional və qlobal layihələrdən təcrid etmək üçün öz siyasətimizi davam etdirəcəyik, o vaxta qədər ki, torpaqlarımız azad olunacaqdır."

Məlumdur ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində son on altı ildə Ermənistan və Azərbaycan prezidentlərinin, xarici işlər nazirlərinin xeyli görüşləri olub və bu keçirilən görüşlərində danışıqların əsas mövzusu işğal altında olan bütün torpaqlarımızın qaytarılması, soydaşlarımızın öz doğma yurd-yuvalarına qayıtmasıdır. Azərbaycanın mövqeyinin dəyişməz olduğunu bəyan edən Prezident İlham Əliyevin sərt bəyanatları, təbii ki, işğalçı Ermənistanı, ona havadarlıq edən dövlətləri və təşkilatları ciddi düşündürməlidir: "Dağlıq Qarabağın Azərbaycandan ayrılması mexanizmləri yoxdur və ola da bilməz. Bütün təzyiqlərə baxmayaraq, bu mövqeyi biz axıra qədər müdafiə edəcəyik."

Bir sözlə, işğalçı ölkənin işğalçı baş naziri Paşinyan anlamalıdır ki, bu oyundan geri çəkilməlidir. Çünki Soçi və Aşqabad görüşlərində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı artıq Ermənistan cəmiyyətində Paşinyan rejiminə qarşı böyük nifrət və inamsızlıq formalaşdırdı. Onun yenidən sərsəm bəyanatlarla çıxış etməsi isə, ölkədaxili ictimai-siyasi vəziyyəti öz xeyrinə dəyişmək istəsə də, nəticə uğursuzdur.

Bir sözlə, Ermənistan nə qədər təxribat törətmək istəsə də, Paşinyan və komandası da daxil olmaqla, bütövlükdə, erməni toplumunun qurtuluşu və xilası, məhz elə Azərbaycanla bağlıdır.

Nəticə: Məhz Ermənistanın son günlərdəki durumu, bir daha göstərir ki, Ermənistanda inkişaf və sabitlik, Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə qədər, bərqərar olmayacaq. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir. Paşinyan da sələfləri kimi, səbəbi qoyub nəticələrlə uğursuz mübarizə aparmamalıdır. Çünki yekun eyni olacaq, daha dəqiqi, daha pis... Yəni Ermənistanda inkişaf və sabitlik, Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə qədər, bərqərar olmayacaq!!!

**A.SƏMƏDOVA**

# Əli İnsanovun “HƏP”i yararsızdır

## *Eks-nazirin siyasi gündəmə gəlmək şansları sıfıra bərabərdir*

***Sabiq səhiyyə naziri Əli İnsanovun bir neçə nəfərin iştirakı ilə “Haqq və Ədalət Partiyası” adı altında siyasi təşkilat yaratmaq cəhdi, nəinki ictimai rəy tərəfindən, eləcə də, müxalifət düşərgəsində fəaliyyət göstərən şəxslər tərəfindən də ittiham olunmaqdadır. Belə ki, İnsanovun korrupsionerlik çirkabında olması və s. “keyfiyyətləri” baxımından, ümumiyyətlə, xalq tərəfindən qəbul olunmaması reallığı isə günü-gündən öz təsdiqini tapmaqdadır.***

### Sərdar Cəlaloğlu: “Onların müxalifətə də güc, potensial gətirəcəyinə inanmıram”

Bu arada, ADP sədri Sərdar Cəlaloğlunun Ə.İnsanovun “HƏP” yaratmaq cəhdi ittiham atəşinə tutulub. Onun mətbuta verdiyi bəyanata görə, yeni yaranmış “partiya” özünü cəmiyyətə təqdim etməyib. “Siyasi təşkilatlanma və siyasi mübarizə üç mərhələdən keçir” deyə qeyd edən müxalifətçi partiya sədri əlavə edib ki, bunlar özünü yaratma, özünü təqdimetmə və ondan sonra hədəflər uğrunda mübarizədir: “Biz indi gözləyək görək, bu, özünü cəmiyyətə necə tanıda biləcək və nə qədər xalq bunu qəbul edəcək? Elə düşünməyək ki, kimsə nəsə yaratdısa, ortaya nəsə qoydusa, cəmiyyət dərhal bu ideyanı göydən qapacaq”.

S.Cəlaloğlu xatırladıb ki, “HƏP”də təmsil olunanlar üzdönüklərdir və vaxtilə, məhz korrupsionerlik əməllərinə görə, cəzalandırılmış adamlardır. Onlar indi də müxalifətçilik adı altında guya vaxtilə törətdikləri əməllərini “konpensasiya” etmək istəyirlər. Amma onların bu cəhdləri heç də uğurlu nəticə verməyəcək. Ona görə də, “düşünmürəm ki, özlərinin vurduqları ziyanları belə aradan qaldıra bilsinlər” deyən S.Cəlaloğlu onların müxalifət düşərgəsinə də hər hansı güc, yaxud potensial gətirə biləcəklərinə inanmadığını deyib: “Onların müxalifətə də güc və potensial gətirəcəklərinə inanmıram”.

### ADP sədri: “O yerdə ki, ambisiya var, o yerə ki, eqoist maraqlarla qoşulursan, orada heç vaxt ümumi maraqlara xidmət edəcək nəsə ortaya çıxa bilməz”

ADP sədri digər maraqdoğurucusu məsələyə də münasibət bildirib. Onun sözlərinə görə, Ə.İnsanov həbsxanadan çıxandan sonra ambisioz fikirlər səsləndirir və bu faktor onun hər hansı siyasi uğur əldə edəcəyinin mümkünsüzlüyünü göstərir: “Əli İnsanov həbsxanadan çıxanda, bir bəyanat vermişdi. Ona müxalifətlə birləşib-birləşməyəcəyi barədə sual verildi. O dedi ki, bilmək olmaz, müxalifət mənim ətrafımda birləşəcək, yoxsa mən onların ətrafında. Ola bilsin ki, istiisti o fikirlərini korrektə edə bilmirdi...O yerdə ki, ambisiya var, o yerə ki, eqoist maraqlarla qoşulursan, orada heç vaxt ümumi maraqlara xidmət edəcək nəsə ortaya çıxa bilməz. Bu baxımdan, onun iddiallığını nəzərə alıb, demək istəyirəm ki, Əli İnsanov birləşdirici fiqur ola bilməz. Müxalifətin birliyi yolunda da əhəmiyyətli rol oynaya bilməyəcək”.



### Milli qəhrəmanın anası: “Heç bir partiyanın təşkilat komitəsinin üzvü deyiləm”

Bu arada, “HƏP”in “təşkilat komitə”sində adları çəkilənlər arasında milli qəhrəman Tahir Həsənovun anası, Azərbaycan Milli Qəhrəman Ailələrinin Sosial Müdafiəsi İctimai Birliyinin sədri Qalibə Budaqova da var idi ki, o, dərhal adının orada hallanmasına kəskin etirazını bildirib. O, barəsində yayılan məlumatları təkzib edib: “Mənim adımı yeni yaradılan “Haqq-Ədalət Partiyası” təşkilat komitəsinin üzvü kimi hallandırıblar. Mən Qalibə Budaqova heç bir partiyanın və heç bir partiyanın təşkilat komitəsinin üzvü deyiləm. Mən uzun müddətdir ki, xəstəyəm və müalicə altında olduğum üçün heç evdən belə çıxa bilmirəm. Xahiş edirəm, mənim adımı heç bir partiya üzvlüyündə hallandırmasınlar”.

Məhz bu reallıq da sübut edir ki, Ə.İnsanov öz köhnə xislətindən əl çəkməyib və hətta insanların haqlarına girməklə, onları özünün getdiyi çirkabli yola bulaşdırmağa cəhdlər göstərir. Bütün bunlar isə, sübut edir ki, eks-nazirin “HƏP”i yararsızdır və onun siyasi gündəmə gəlmək şansları sıfıra bərabərdir.

***Rövşən RƏSULOV***

# Miqrant alverində faktlar artdıqca, təhdidlər də çoxalır

## *Gülağa Aslanlı dəlilləri ortaya çıxaran jurnalisti hədələyib*

***Mühacir alverinə görə Almaniya polisinin Avropada Müsavat partiyası üzvlərini həbs etməsinin ardınca partiyada yaşanan kəskin qarşıdurmalar, ittiham və suçlamalar daha da artır. Hətta ictimaiyyət nümayəndələrindən daha çox müsavatçıların özləri partiya rəhbərliyini saxtakarlıqda və yarıtmaz siyasət aparmaqda günahlandırırlar.***




Məsələn, xatırlada bilərik ki, Avropada yaşayan müxalitəyönlü fəal Nahid Cəfərov deyib ki, 2016-cı ildən siyasi proseslərə qatılandan klassik müxalifətin hansı iyrəncliklər içində olduğu dərhal göründü: “Bununla bağlı 2017-ci ilin noyabr ayında şəxsən özüm məqalə yazdım. Məqsəd gördüklərimizi hər kəsə göstərmək idi”.

### Nahid Cəfərov: “Böhtan atırlar, tirajlayırlar, trol hücumları təşkil edirlər və s. və ilaxır”

Onun sözlərinə görə, çirkaba bulaşmış bu partiyalar saxta sənəd satırlar, ana-bacı söyüşü söyürlər və bu söyüşü söyənləri partiya və ya təşkilatlarda qoruyub-saxlayırlar, böhtan atırlar, daha sonra bu böhtanı tirajlayırlar, trol hücumları təşkil edirlər və s. və ilaxır. N.Cəfərov bu gün müxalifət nümayəndələrinin, müsavatçıların bu dələduzlara qarşı açıq mübarizəsini alqışladığını deyib.

### Gülağa Aslanlı: “Son söz Avropa məhkəmələrinin olacaq, yaşayarıq - görərik”




Müsavat partiyasının başqanı Arif Hacılı, eks-başqan İsa Qəmbər və onların yaxın ətrafları onlara qarşı irəli sürülən haqlı ittihamları, nəinki qəbul etmirlər, üstəlik, faktları ortaya çıxaran şəxsləri müxtəlif cəhətlərdən təhdid də edirlər. Misal üçün, cərəyan edən bəlli olaylar istiqamətində daha bir təhdid partiyanın sədr müavini Gülağa Aslanlı, tərəfindən edilib. Belə ki, o, mühacir alveri qalmaqalı ilə bağlı partiya qarşısında davamlı olaraq, faktlar qoyan jurnalist Yafəz Əkrəmoğlunu hədəfə almaqla, onu məhkəməyə verəcəyini bildirib. Hətta G.Aslanlı növbəti addım kimi, Almaniya məhkəməsinə müraciət edəcəyini bildirib. “Bütün hallarda son söz Avropa məhkəmələrinin olacaq, yaşayarıq-görərik” deyə müsavatçı funksioner bildirib.

### Yafəz Əkrəmoğlu: “Avropada bu qələti edə bilməzsən, çünki Avropa məhkəmələri sənin saxta mühacirlərə verdiyin arayışlardan boğaza yığılıblar”

Onun bu təhdidi Y.Əkrəmoğıunu heç də iddiasından geri döndərməyib, əksinə, daha bir faktı ortaya qoyub. Onun sözlərinə görə, G.Aslanlı mühacirətə gələnlər üçün “paket” düzəldir. Paketin aşağı qiyməti isə 6 mindir. “Ancaq Avropada bu qələti edə bilməzsən, çünki, Avropa məhkəmələri sənin saxta mühacirlərə verdiyin arayışlardan boğaza yığılıblar. Oturub səni gözləyirlər ki, gələn kimi, sənin özünü həbs etsinlər. “Tak çto”, papağını qoy qabağa yaxşı düşün” deyə Əkrəmoğlu bildirib.



Beləliklə, bu məsələnin, nəinki Almaniyada, eləcə də, Avropanın digər ölkələrində də aktuallığı artır və çox yəqin ki, bizlər Hollandiyada, Fransada, İngiltərədə və s. ölkələrdə də hüquq-mühafizə orqanlarının mühacir alveri məsələsində hərəkətə keçəcəklərinin şahidlərinə çevriləcəyik.

***Rövşən RƏSULOV***

# Qaradağda baş verən yol qəzasında iki nəfər ölüb



Qaradağ, Nizami və Binəqədi rayonlarında ölümlə nəticələnən yol-nəqliyyat hadisələri baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Qaradağ rayonunun Ələt qəsəbəsi ərazisində Tovuz rayon sakini Rövşən Cabbarovun idarə etdiyi “Hyundai” markalı avtomobil aşıb. Nəticədə sürücü və sərnişinlərindən Əminə Zeynalova hadisə yerində ölüblər. Paytaxtın Nizami rayonunun R.Rüstəmov küçəsində yolu keçən Bakı şəhər sakini Güləvər Əhmədovanı paytaxt sakini M.Quliyev idarə etdiyi “Mercedes” markalı avtomobillə vurub. Piyada hadisə yerində dünyasını dəyişib. Binəqədi rayonunun S.S.Axundov küçəsində isə yolu keçən paytaxt sakini Pakizə Axundovanı Bakı şəhər sakini E.Əliquliyev idarə etdiyi “Mercedes” markalı avtomobillə vurub və piyada ölüb. Hadisələrlə bağlı araşdırmalar aparılır.

# Keçən ay ölkəyə gətirilən avtomobillərin sayı açıqlanıb



Oktyabrda Azərbaycana idxal olunan avtomobillərin sayı 4549 olub. Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, ölkəyə gətirilən avtomobillərin 70-i sürücü daxil olmaqla 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitəsi, 4109-u əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitəsi, 337-si yük daşımaq üçün motorlu nəqliyyat vasitəsi, 33-ü isə xüsusi təyinatlı motorlu nəqliyyat vasitəsidir.

# Müxalifət liderləri keçmişdə olduğu kimi, indi də ləkəlidirlər

*"Prezident İlham Əliyevin Kərimov Əli, Qəmbərov İsa və digərləri haqqında dediyi fikirlərlə tam razıyam"*

***Prezident İlham Əliyev Sumqayıtın 70 illiyi ilə bağlı keçirilən tədbirdə Azərbaycanın müstəqillik tarixinə nəzər saldı və AXC-Müsavat hakimiyyətinin o zaman ölkəni xaos və anarxiyaya sürüklədiyini söylədi. Bildirdi ki, bu gün də həmin o müxalifət - İsa Qəmbər, Əli Kərimli, İsgəndər Həmidov və digərləri öz qara niyyətlərini küçələrdə davam etdirməkdədirlər. Söhbət etdiyimiz müsahiblərimiz Prezidentin çıxışında söylədiyi əsaslı fikirlərin bir daha müxalifətin ifşası, müxalifətin hansı məkrli fəaliyyətə malik olduğunun növbəti bir nümayişi olduğunu bildirdilər.***

Müasir Müsavat partiyasının sədri Hafiz Hacıyev: **"Kərimov Əli 100 yerə işləyən şərəfsizin biridir"**



- Prezident İlham Əliyevin Sumqayıtın 70 illiyi ilə bağlı keçirilən tədbirdə çıxışını diqqətlə izləmişik və orda dedikləri tam əsaslıdır. Kərimov Əli kimi özünün şərəfini və namusunu itirən bir uşaq Əbülfəz Elçibəyə xəyanət edib. Yəni Əbülfəz Elçibəyin zəhər verib öldürülməsindən tutmuş Əbülfəz Elçibəy xəstəxanaya gedəndə, onun haqqında əxlaqsız söz yazdıran, məhz Kərimov Əli olubdur. Kərimov Əli 100 yerə işləyən şərəfsizin biridir. Mən belə biabırçı insanlar görməmişdim. Yəni mənəviyyatını, şəxsiyyətini itirmiş insanlar görməmişdim. Kərimov Əli ilə Qəmbərov İsa kimi Azərbaycan xalqına zərbə vuran 2, 3, 4-cü adamlar tanımıram. Bir sözlə, Prezident İlham Əliyevin onlar haqqında dediyi fikirlər çox əsaslı fikirlərdir. Düşünürəm ki, bunlar haqqında çox ciddi tədbir görülməlidir. Yəni Kərimov Əlinin dövlət katibi olanda kimlərlə separat danışıqlara getməsi, hansı oyunlardan çıxması, o cümlədən, Qəmbərov İsanın da hansı oyunlardan çıxması araşdırılıb, cəmiyyətə açıqlanmalıdır. Yəni bu küçə adamları Azərbaycanda 1 illik hakimiyyətləri dövründə nələr etmədilər, onu mən dəfələrlə faktlarla bildirmişəm. Kərimov Əlinin Əbülfəz Elçibəyə ad günündə zəhər verib, öldürməsi faktı təsdiq olundu, amma Respublika Prokurorluğu onun haqqında cinayət işi başlatmadı. Bu da, çox narahatedici məsələdir. Bakı Şəhər Prokurorluğunda qaldırılmış cinayət işi tam sübuta yetirildi və nəticəsiz qalıbdır. Nəticəsiz də qalanda, əlbəttə ki, Kərimov Əli xarici kəşfiyyat orqanlarının əli ilə əlaqələrini genişləndirir. Bildiyiniz kimi, Kərimov Əlinin bir tərəfi ermənidir, yəni bütün bunların hamısı bizim əlimizdə olan faktlardır. Bizim gözümüzün qabağında bu gədənin böyüməsi, satqınlıq etməsi, agent işləməsi hamımıza bəllidir. Prezident İlham Əliyevin Kərimov Əli, Qəmbərov İsa və digərləri haqqında dediyi fikirlərlə tam razıyam. Bir sözlə, Kərimov Əlinin, Qəmbərov İsanın və digərlərinin haqqında cinayət işi qaldırılıb həbs edilməsi lazımdır ki, xalqın canı bunlardan qurtarsın.

"Yurddaş" partiyasının sədri Mais Səfərli: **"Prezident İlham Əliyev çox doğru olaraq o illəri xarakterizə edibdir"**

- Prezident İlham Əliyev Sumqayıtın 70 illiyi ilə bağlı keçirilən tədbirdə Azərbaycanın müstəqillik tarixinə nəzər salması və AXC-Müsavat hakimiyyətini ölkəni dağılmaqda, xaos və anarxiyaya sürükləməkdə ittiham etməsi düzgün və əsaslıdır. O illərdəki hakimiyyət, əslində, Azərbaycanın üzqarası idi. Demək olar ki, AXC-Müsavat hakimiyyətində təmsil olunan insanların çoxu təcrübəsiz və naşı idi, yəni heç tutduqları vəzifələrə qabiliyyətləri də çatmırdı. Elə ona görə də, bu hakimiyyətin ömrü uzun olmadı. Bir sözlə, o hakimiyyətin vaxtında Azərbaycanın ərazi bütövlüyü və Azərbaycanın ayaqda qalması üçün böyük təhlükələr yarandı. Yəni Azərbaycan parçalanmaq və müstəqilliyini itirmək təhlükəsi qarşısında qaldı. Bu, bir faktdır və bunu danmaq olmaz, yəni bu, bizim tariximizdir, keçmişimizdir. Prezident İlham Əliyev çox doğru olaraq o illəri xarakterizə edibdir və həmin illərdə siyasi hakimiyyətdə olan qüvvələrə də çox düzgün qiymət verib. Ümumiyyətlə, bu gün heç kəsə sirr deyil ki, xaricdə olan bəzi qüvvələr Azərbaycan dövlətinin uğurlarına kölgə salmaq istəyir və bunun üçün də daxildə olan radikal müxalifət düşərgəsində təmsil olunan şəxslərdən bir vasitə kimi istifadə edir. Amma nə xarici qüvvələrin, nə də daxildə olan müxalifətin ölkəmizlə bağlı məkrli planı baş tutmayacaqdır.



Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: **"Zaman Əli Kərimli və İsa Qəmbər kimi insanların cəzasını verəcək"**

- Prezident İlham Əliyevin Sumqayıtın 70 illiyi ilə bağlı keçirilən tədbirdə AXC-Müsavat hakimiyyəti dövrü və müxalifət haqqında söylədiyi fikir xalq tərəfindən çox yüksək qiymətləndirildi. Çünki məhz həmin illərin ağrı-acısını xalq çəkmişdir. Bu gün də xalq yenidən o dövrün hadisələrini yaşamaq istəmir. O dövrdə hakimiyyətdə olan insanlar sonradan, təxminən, 50-yə yaxın partiya yaradaraq özlərini lider, guya xalqın mənafeyini qoruyan insanlar kimi təqdim etməyə başladılar. Əvvəla, bu insanlar əgər doğrudan da, xalqın yolunda mübarizə aparırdılarsa və komanda şəklində hakimiyyətə gəlmişdilərsə, niyə bunların, hətta ən aşağı ranqlı məmurları belə partiya və siyasi hərəkat yaradıb, özlərini ayrıca lider elan edirdilər. Elə buradan görsənir ki, bu insanlar ancaq şəxsi mənafelərini güdüb və o dövrdə də indiki kimi, bir-biri ilə hakimiyyət uğrunda mübarizə apararaq, xalqı yaddan çıxarıblar. Məhz buna görə də, Azərbaycanda xaos və qarşıdurma yarandı. Ötən illər ərzində də bu insanlar, müxalifət olaraq, heç bir siyasi yenilik gətirmədən 80-90-cı illərin meydan təfəkküründə qalaraq fəaliyyət göstərməyə davam etmişlər. Xarici qrantlar hesabına öz varlıqlarını qorumağa çalışan bu insanlar çoxdan xalqın gözündən düşmüşlər. Həmçinin, bu insanların dəfələrlə xarici anti-Azərbaycan qurumlarından aldıqları dəstək sübut olunmuş və bu insanlar ifşa olunmuşlar. Son mühacirət alveri ilə bağlı hadisələr isə bunların kim olduqlarını bir daha sübut etmişdir. Lakin çox təəssüf ki, ifşa olunmaqlarına baxmayaraq, özlərində həya tapıb siyasi səhnədən getmək istəmirlər. Yenə də qaragüruhçuluq edir, küçələrə çıxır sosial şəbəkələrdə qara yaxır və öz amplualarına uyğun hərəkətlərinə davam edirlər. Hesab edirəm ki, zaman Əli Kərimli və İsa Qəmbər kimi insanların cəzasını verəcək.



"Təkamül" partiyasının sədri Teyyub Qənioğlu: **"Belə bir sözün işlədilməsi müxaliflərin nə qədər savadsız və siyasi naşı olduqlarını göstərir"**

- Hakimiyyət gəlmək və dövləti idarə etmək üçün gərək sənin hazırlıqlı komandan olsun, yəni siyasətdən, iqtisadiyyatdan, ölkədə baş verən prosesləri görən, beynəlxalq aləmdəki vəziyyəti dərindən dərk edən komandaya ehtiyac var və bu komanda ilə hakimiyyəti idarə edə biləsən. Təəssüflər olsun ki, AXC-Müsavat hakimiyyətində təmsil olunanların bu deyilənlərdən heç birindən xəbərləri yox idi. Yəni populist şüarlarla ölkədə yaranmış vəziyyətdən istifadə edərək, hakimiyyətə gəldilər. İndiki gənc nəsil o dövrdə baş verənləri bilmir, amma biz o dövrü yaşadığımızdan, hadisələrdən və baş verənlərdən xəbərdarıq. Həmin dövrlərin acınacaqlı durumu və prosesləri bizim gözümüzün qabağında baş verirdi. Mən, məsələn, Arif Hacılının Milli Məclisdə bir çıxışını xatırlayıram, o, çıxışında deyirdi ki, biz hakimiyyətə gəlmək üçün 9 ölkə ilə razılığa gəlmişik. Yəni belə bir sözün işlədilməsi müxaliflərin nə qədər savadsız və siyasi naşı olduqlarını göstərir. Siyasətçi heç vaxt bu cür fikirləri dilinə gətirməməlidir. Bu, onu göstərir ki, bunların səviyyəsi nədən ibarətdir. Demək olar ki, mən 30 ildir adları çəkilən şəxslərin fəaliyyətini izləyirəm, o vaxtdan bəri bunların təfəkküründə bir dəyişiklik yoxdur. Yəni yenə də bu şəxslərdə eyni şüarlar, eyni mövqelərdir. Ətrafımızda Suriyada, Liviyada və İraqda nələr baş verdiyini gözümüzün önünə gətirək. Yəni Azərbaycanda sabitliyi pozmaq istəyən qüvvələrin olduğunu yaddan çıxartmayaq. Bütün bunların müqabilində yalnız dinc, konstitusion yolla mübarizənin tərəfindəyik. Ölkədə nə isə, xoşagəlməz vəziyyətin yaratmasını istəmirik. Yaxşı olardı ki, onlar bu cür hərəkətlərindən əl çəksinlər.



Milli QHT Forumunun prezidenti Rauf Zeyni: **"Müxaliflər səhvlərdən nəticə çıxmaq fikrində olmadıqlarını nümayiş etdirirlər"**



- Prezident İlham Əliyev Sumqayıtın 70 illiyi ilə bağlı keçirilən tədbirdə Azərbaycanın müstəqillik tarixinə nəzər saldı və AXC-Müsavat hakimiyyətinin ölkəni xaos və anarxiyaya sürüklədiyini söyləməsi, tamamilə düzgündür. Bəli, müxalifətin vaxtı ilə buraxdığı səhvlərinin indi də, acı fəsadlarını yaşayır və hazırda da anormal fəaliyyətləri ilə səhvlərdən nəticə çıxarmaq fikrində olmadıqlarını nümayiş etdirirlər. O dövrdə baş verən bütün bu proseslərdə kimin hansı dağıdıcı, hansı mənfi rol oynadığını çox gözəl bilirik. Bu gün müxaliflər təxribatlar törətməyə çalışırlar. Ancaq istəklərinə nail ola bilməyəcəklər. Çünki Azərbaycan artıq elə bir inkişaf yolu ilə gedir ki, hər hansı bir dağıdıcı qüvvələr, ona təsir göstərə bilməyəcəkdir. O cümlədən də, AXCP və Müsavat və özünü müxalifət adlandıran digər qüvvələr də, bu məsələdə heç bir rol oynaya bilməyəcəklər. Çünki Azərbaycan dövləti əvvəlki Azərbaycan deyil. Bu gün Azərbaycan gücü və qüdrətli dövlətdir.

TOHGMİB-nın sədri Emin Həsənli: **"Rəhim Qazıyevin xəyanəti ucbatından Laçınla Şuşa işğal edildi"**



- Prezident İlham Əliyevin Sumqayıtın 70 illiyi ilə bağlı keçirilən tədbirdə söylədiyi fikirlər tamamilə doğrudur. İndiki gənc nəsil o dövrdə baş verənləri tam şəkildə bilmir, amma biz hamımız o dövrü yaşamışıq və həmin adamları çox yaxşı tanıyırıq. Demək olar ki, adları çəkilən şəxslərin heç birinin bacarığı, savad biliyi yox idi. Tamamilə doğrudur ki, 11 il aspirantura oxuyub, bir elmi işi müdafiə edə bilməyən adam ölkədə birinci adam idi, bir müddət prezident səlahiyyətlərini icra etdi və yaxud da Rəhim Qazıyev olsun, yəni Rəhim Qazıyevin heç bir hərbi təhsili, leytenant rütbəsi belə olmaylb, amma gəlib müdafiə naziri işləyirdi. Bir sözlə, bunların niyyəti o idi ki, əllərində silahlı dəstələr olsun, bu dəstələr vasitəsi ilə də dövlət çevrilişi etsinlər. Bu cür naşı adamların üzündən bizim həm torpaqlarımız getdi, həm də nə qədər şəhidlərimiz oldu. Vahid komandanlığa əsaslanan ordu yaradılmamışdır. Demək olar ki, hər partiyanın bir siyasi dəstəsi var idi. Bu cür bacarıqsız, səriştəsiz adamlar hakimiyyətin başında idi və heç birinin də idarəetmə təcrübəsi yox idi. Yəni savad, təlim biliyi və vəzifə pillələrindən keçməmişdilər. O vaxtı Əli Kərimlinin yaşıdlarının müharibəyə səfərbəri olurdu və gedib döyüşürdülər, Ə.Kərimli isə, hakimiyyətdə müxtəlif vəzifələri tuturdu və dövlət katibi vəzifəsini icra edirdi. Rəhim Qazıyevin xəyanəti ucbatından Laçınla Şuşanın getməsini bu gün Azərbaycan cəmiyyəti və hər kəs bilir. Haqlı olaraq, məhkəmə ona azadlıqdan məhrumetmə qərarı vermişdi. Ancaq Cənab Prezident humanistlik edərək onu əfv etdi, amma o da, bundan nəticə çıxarmadı. Yeni nəsil o dövrdə nələr baş verdiyini bilmir, amma o dövrü yaşayan adamlar bilir, həmin dövrdə hərənin bir silahlı dəstəsi var idi, sabitlik yox idi, iqtisadi böhran var idi, insanların sabaha ümidi yox idi, yəni hamı vaxtında Azərbaycan ağır vəziyyətdə idi. Ulu Öndər Heydər Əliyev gəldi və Azərbaycanı xilas etdi. Azərbaycan xalqı bir dəfə o insanlara inandı və meydanlara çıxdı. 20 yanvarda yenə də xalqı tək qoydular və 20 Yanvar faciəsi törədildi, o hadisələr zamanı onların heç birinin burnu da qanamadı. Yadımdadır, R.Qazıyevin olduğu hərbi hissələrin birində 7 nəfər həlak oldu və sübut da olundu ki, onu özü təşkil etmişdi. Ona tabe olmayan adamların hamısı həlak oldu, guya R.Qazıyev ayağından yaralandı, belə şoular təşkil edərək, o vaxt xalqın hissləri ilə oynayırdılar. Yəni bu adamların heç birinin burunu da qanamadı və nəticədə, Azərbaycan torpaqları işğal olundu. Bir sözlə, siyasətdən, elmdən və idarəetmədən uzaq olan insanlar vəzifələrdə təmsil olunurdular. Belə qeyri- peşəkarlıq da çox böyük problemlərə gətirib çıxardı və bu problemlərin nəticəsində hakimiyyət böhranı ardınca dövlət böhranı yarandı və bütünlükdə, Azərbaycan dövlətçiliyi əldən gedirdi. Yalnız Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan dövləti və xalqı xilas oldu.

**GÜLYANƏ**

# Aslan İsmayılov - yalan anatomiyası

*Yaxud Allahverdi adına layiq olmayan hiyləgər sifət*

***Dəfələrlə vurğulamışam, ancaq bezməmişəm, özünün qondarma "Aslan" adı ilə "qürur" duyaraq, bu ölkənin uğurlarına qısqanclıqla yanaşan belə "vəkillər" ancaq erməni xislətli olur. Bu gün Aslan İsmayılov kimi, adı ilə öz-özünü "aslan" sayan, əslində isə, heç həşərat qədər görünməyən və zaman-zaman erməni yarlığı ilə gəzən, başdan-ayağa saxtakar olan, həftə səkkiz, mən doqquz, boşboğazlıq edən, dövlətə və xalqa böhtan yağdıran A.İsmayılov ömür boyu erməniyə işlədiyini görünür unudub. Və elə zənn edir ki, XALQ TARİXİ UNUDUB. Ay bədbəxt erməni vəkili, tarix unudulmur!***

Bu günlərdə ölkə rəhbərinin Sumqayıtın 70 illik yubileyi zamanı Sumqayıt hadisələri ilə bağlı səsləndirdiyi faktlar, bir daha sübut etdi ki, TARİX UNUDULMAYIB. Bəli, xəyanətkar, erməniləşmiş A.İsmayılov ermənilərlə təkcə bu gün yox, 1988-ci ildən işləyib. Məşhur Sumqayıt hadisəsində də ermənilərin yanında dayanaraq, Azərbaycan övladları barədə hökm çıxarıb.

### Hafiz Hacıyev: "Erməniləşən Aslan İsmayılov əməllərinə görə cavab verməlidir"

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev Aslan İsmayılovun bütünlüklə cinayətkar olduğunu deyərək sual edir ki, bu adam vətəninə, dövlətinə xəyanət edibsə, niyə bu gün cəzasını almır: "Psixiatrlar insanda özünütənqid hissinin itməsini şizofreniyanın bariz əlaməti hesab edirlər və sovet sisteminin dağılması ilə aqoniya yaşamış cəmiyyətlərdə şizofreniyadan əziyyət çəkən fərdlərin özlərini "prezident postunda" görməsi faktlarına sıxsıx rastlaşılır. A.İsmayılovda şizofreniya xüsusiyyəti daha çoxdur. Çünki o, başqa ölkələrin maraqlarına xidmət



edir. Bu gün hesab edirəm ki, bu istiqamətdə araşdırmaları daha da dərinləşdirmək lazımdır. O zaman Aslan İsmayılovun da əməlləri üzə çıxacaq. Məlum olacaq ki, həmin xəyanətkar şəbəkənin əsas siması elə odur".

Partiya sədri, onu da vurğulayıb ki, A.İsmayılovun məhkəməyə müraciət etməsi heç nəyi dəyişməyəcək: "Bu adam özü xəyanət içində batır. Məhkəmə ilə bizi qorxuda və həqiqəti deməkdən çəkindirə bilməz. Biz onun özünü məhkəməyə veririk".

Göründüyü kimi, A.İsmayılov, nə edirsən et, kimin kim olduğunu hamı yaxşı bilir. Atalar demişkən: dəvəquşu başını quma basır, elə zənn edir ki, heç kim görmür. Sən get o nağılları öz səviyyəndə olanlara söylə. Səni qınamırıq, çünki xəmirin belə yoğrulub. İllərlə "vəkili" oldun, ictimai-siyasi mühitdə boy göstərməyə çalışdın, amma alınmadı. Çünki sənin seçdiyin yol xəyanət, böhtan oldu, bunun da sonu bəllidir - törətdiyin əməllərinə görə cəza çəkməlisən. Çünki Aslan İsmayılovun bütün əxlaqsız hərəkətləri erməniləşməklə yanaşı, həm də mənəviyyat çirkaba bulaşmış erməni xislətlidir. Erməniləri müdafiə edə-edə, onların yanında dayana-dayana ermənilər kimi özü üzərində yazıqlıq, haqsızlığa məruz qalmışlıq imici yarada-yarada siyasi və maddi dividend toplayır, mal-dövlət yığır. Ancaq Aslan İsmayılov bilməlidir ki, xalq və dövlət maraqlarımıza qarşı törədilən çoxsaylı xəyanətlərinin cavabını verməsinin zamanı çatıb. Çox da baş-ayaq atma, Aslan İsmayılov, əlahəzrət qanun qarşısında cavab verəcəyin gün elə də uzaqda deyil!

Fransız psixoloq Julyer iddia edir ki, insanlarda satqınçılıq və xəyanət simptomları bir dəfə formalaşırsa, bu sistemli şəkildə davamlı olur və ətraf mühitdə ikrah yaranır. Bu məntiqlə yanaşsaq, aydın olur ki, bu gün A.İsmayılov illərdi ki, eyni mühitdə qalıb, zaman-zaman Azərbaycan xalqına xəyanət edib.

Bu yerdə Dostoyevskinin təsvir etdiyi kimi cinayəti törədib, onun cəzasından qaçmaq mümkündür. Amma o cinayətin qorxusundan çıxmaq, əsla, mümkün deyil. Bu gün A.İsmayılov da cinayətinin, xəyanətinin qorxusu ilə baş-başa qalıb. Və bu qorxu o həddə çatıb ki, artıq qorxu insanların yaşam tərzinə çevrilib. Buna, sadəcə olaraq, TƏSSÜF etmək olar.

### Xəyanətkar "hüquqşünas"ın quduzluğu

Bu yerdə, deməliyəm ki, həqiqətən də, itin quduzlaşması düzələn deyil. Atalar yaxşı deyib ki, bələdçisi qarğa olanın dimdiyi həmişə zibillikdə olar. Çünki Azərbaycana qarşı aparılan antimilli "savaş"ın sonu iflasa uğrayır. Və bu gün A.İsmayılovun etdiyi cinayətlərə görə xalqın onun cəzalandırılması tələbi yerində səslənən tələbdir. Təbii ki, ölkə başçısı dəfələrlə anti-Azərbaycan qüvvələrə qarşı siyasi iradəsini qəti şəkildə ortaya qoyub. Hətta bu qüvvələrə qarşı Prezident Administrasiyasının İctimai-siyasi şöbəsinin müdiri Əli Həsənovun da davamlı yazıları göstərir ki, bu qüvvələr iflasa uğramış bir zümrəni təmsil edir. Əli Həsənovun təbirincə desək, xaricdən maliyyələşən və idarə olunan "iaşə müxalifəti" nə qədər cəhd etsə də, ölkəmizin suverenliyinə xələl gətirə bilməz. Və ölkə başçısı İlham Əliyevin siyasi iradəsi qarşısında isə, bütün antimilli qüvvələr məğlubiyyətə məhkumdurlar.

Və şübhəsiz, özünü cəmiyyətə milli-azadlıq hərəkatının fəallarından biri kimi, eləcə də, "təcrübəli vəkil" olaraq təqdim edən A.İsmayılov bilməlidir ki, qaranlıq fəaliyyətinin qaranlıq sonu iflasa məhkumdur.

**Rəfiqə HÜSEYNOVA**



# Artıq tamah baş yarar

RƏFİQƏ

Bəli, yarar, özü də necə yarar? Almaniyanın hüquqmühafizə orqanlarının Müsavat partiyasının keçmiş üzvlərinin - cinayətkar şəbəkəyə daxil olan 7 nəfərin həbs edilməsi və saxlanılan üzvləri barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs qətimkan tədbiri seçilməsi Müsavat başqanı Arif Hacılının, necə deyərlər, kefinə yaman soğan doğradı. Cidanı çuvalda gizlətmək olmaz. Çünki 26 ildən bəri erməni yalı ilə yemlənən Arif Hacılı kimi satqınlar hər gün bir cinayətkarı, Vətən xaininin adını ya "siyasi məhbus" qoyur, ya da "siyasi mühacir" adı ilə Azərbaycana qarşı böhtan və şər yağdıranda, bilmirdi ki, gec-tez hər şey üzə çıxacaq. Nəinki üzə çıxacaq, hətta ətrafında olan "dostları" da üzə duracaq. Bax, budur, satqınların, yalaqların iç üzü. Belədir, ya yox, cənab misterlər?

Belələri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır. İstər Əli Kərimli, istər İsa Qəmbər, istər Arif Hacılı və... bu kimi məxluq və dələduzlar və onların törəmələri orduxan teymurxanlar, tural sadıqlılar, həbib müntəzirlər, məhəmməd mirzəlilər, elmir şirəliyevlər, camal seyidlilər, pərviz abdullayevlər, pərvin ismayılovlar, zaman bünyatovlar, orxan həbiblilər, vəfa əlizadələr Vətəninə, millətinə dönük xəyanətkarların üzünə tüpürmək lazımdır və belə satqınlar tarixə də satqınlar kimi düşəcəklər.

"Siyasi mühacir"lərin maşasına çevrilənlər unudurlar ki, hansısa "gedişlərlə" özlərinin məkrli niyyətlərini ört-basdır etsələr də, bu baş tutmur və tutmayacaq da. Çünki sular durulduqca, bəzi qaranlıq mətləblərə işıq düşdükcə, ermənilərlə və anti-Azərbaycan dairələrlə işbirliyində olan bu üzdəniraq "söyüş makinalarına" qarşı ictimaiyyətimizin nifrəti daha da artır. Ona görə ölkəmizdə sabitliyi, inkişafı istəməyən, milli maraq və mənafelərimizə zərbə vurmağa çalışan, xalqımızın milli-mənəvi və əxlaqi dəyərlərini hədəfə alan daxili və xarici qüvvələrin öz niyyətlərini həyata keçirmələrinə heç vəchlə imkan verilməyəcək.

Bu yerdə "Uzaq sahillərdə" filmindəki satqın Karranti ilə Mixaylo arasındakı dialoq yada düşür: "Mən alman deyiləm, Mixaylo, mən italyan da deyiləm, mən... - Sən ancaq alçaqsan!" Doğrudan da, xainlərin, satqınların, şərəfini satmışların nə vətəni, nə də milliyyəti olur.

Bu gün Müsavat başqanı Arif Hacılı olanları etiraf etsə də, üzünə duranların sayı yağışdan sonra çıxan göbələklər kimi artmaqdadır. Elə bu günlərdə Müsavat partiyasının məclis üzvü Könül Şamilqızı şəxsi "feysbuk" hesabında paylaşaraq bildirib ki, Avropadakı "moşenniklər" sıralarını genişləndirmək üçün, hətta Müsavata üzv olmayanlara "siyasi mühacir" sənədi vermək üçün "müsavatçı" edərək, onların əli ilə Azərbaycana qarşı böhtanlar yağdırmağa qrant əldə etmək istəyi bu dəfə alınmadı. Bu faktlardan necə çəkinmək olar? K.Şamilqızı bildirib ki, əvvəllər başqa partiyada olanlar da "Müsavat"dan keçmiş tarixlə arayış alıblar: "Fakta əsaslanmaq istəyirəm. Səbuhi Hümmətov adlı əvvəlcə müsavatçı, sonra Sülhəddin Əkbərin partiyasına üzv olan, ardınca Qubad İbadoğlunun yanında durub, Müsavatı söyən bir adam keçmiş tarixlə Müsavat üzvü arayışı alıb. Təbii ki, avtomatik olaraq başqan aşiqi olub. İlham Həsənin və digərlərinin bu barədəki skreenləri durur".

Bax, budur reallıqlar. Bax, budur rəzalət. "Qozbeli qəbir düzəldər", görünür, nə Arif Hacılını, nə Əli Kərimlini, nə İsa Qəmbəri nə... bu kimi iblis xislətli qrant dəllallarını heç qəbir də düzəldə bilməz. Çünki ana bətnindən əyri doğulan bu satqınların yeri ancaq arxivin zibillikləridir. Nə deyəsən, belə şərəfsiz və əxlaqsızlara? Bu xalqın və bu dövlətin haqqını yediyinizə görə LƏNƏT OLSUN SİZİN İYLƏNMİŞ, ERMƏNİ ÜFUNƏTLİ CƏMDƏYİNİZƏ! "Balıq başından iylənər". Bu gədaları quduz oğru itlərə bənzətmək doğru olardı. E.Fətullayev özünün "facebook" hesabında ilginc iddia ilə çıxış edərək bildirib ki, murdar düşərgə virusları oğru itləri yamsılayır: "Əgər 1992-ci ildə Ayaz Mütəllibov bu satqınları quduz itləri kimi güllələsəydi, Azərbaycan siyasətindən belə üfunət iyi gəlməzdi... Üfunət iyi verənlər "siyasi mühacir" adı ilə Avropanın zibilliklərində eşələnirlər. ABŞ-da yaşayan xəyanətkar Sevinc Osmanqızı üfunət iyi verən əsl satqınçılıq, xəyanətkarlıq, riyakarlıq və nəhayət, həyasızlıq ünsürlərdir".

Bax, budur reallıq. Fakt faktlığında qalır. Və bu faktı da unutmayın ki, hakimiyyət həmişə xalqla bir yerdə olub sizin kimi artıq tamah edənlərin başları elə yarıla-yarıla qalacaq, necə ki qalırsınız!

# Azerbaijan Digital Hub proqramı gələcəkdə Startupların inkişafına töhfə verəcək

***Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi "AzerTelecom" şirkətinin Baş direktoru Fuad Allahverdiyev Bakıda keçirilmiş "StartupFest 2019" beynəlxalq festivalının rəsmi açılış mərasimində çıxış edib.***



"Biznes sektorunda rəqəmsal transformasiya: İmkanlar və çətinliklər" adlı panel müzakirəsində çıxış edən Fuad Allahverdiyev özəl sektorda rəqəmsal transformasiya proseslərinin aparılması imkanları, xüsusilə ölkədə rəqəmsallaşma proseslərinə, startupların inkişafına "AzerTelecom" şirkətinin icra etdiyi "Azerbaijan Digital Hub" proqramının təsirləri barəsində danışıb.

Bildirilib ki, "Digital Hub" Azərbaycanın regional rəqəmsal mərkəzə çevrilməsi istiqamətində icra edilən və 3 mühüm fazadan ibarət olan proqramdır və əsas məqsədi ölkə daxilində və xaricində dayanıqlı magistral infrastruktur quruculuğu, Bakının internet mübadilə mərkəzinə (IXP) çevrilməsi, ölkədə iri regional Data mərkəzin qurulması və son nəticədə rəqəmsal ekosistemin formalaşmasıdır. Proqram çərçivəsində iri infrastruktur layihələrindən danışan Fuad Allahverdiyev hazırda Xəzər dənizinin dibi ilə Azərbaycan və Qazaxıstan arasında TransXəzər Fiber Optik kabel xəttinin (TransCaspain Fiber Optic - TCFO) çəkilişi, bununla Avropa ilə Asiya arasında məhz Azərbaycandan keçəcək Rəqəmsal İpək Yolunun (Digital Silk Way) formalaşması və bu layihənin Azərbaycan, ümumilikdə isə regionun inkişafına verəcəyi imkanlardan bəhs edib. Fuad Allahverdiyev "Digital Hub" proqramının iqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyat quruculuğu proseslərinə töhfə verəcəyini bildirib. O ölkəmizdə startupların gələcək inkişafında "Digital Hub" proqramının roluna toxunub və qeyd edib ki, proqram ən müxtəlif fazalarının icrası yeni startupların formalaşmasına və ümumilikdə startup ekosisteminin inkişafına öz müsbət təsirini də göstərəcəkdir.

Qeyd edək ki, "AzerTelecom" şirkəti həmçinin "StartupFest2019" tədbirinə sponsor qismində dəstək olub. Bir neçə panel sessiyasından ibarət tədbirin biznes sektorunda rəqəmsal transformasiyaya həsr olunmuş ikinci sessiyası "AzerTelecom" şirkətinin strategiya üzrə müşaviri Azər Bayramovun moderatorluğu ilə keçirilib.

# Ulu Öndər Heydər Əliyevin xarici siyasət kursunda dialoq və qarşılıqlı əməkdaşlığın əsas yer tutması anlayışı

***1991-1993-cü illərdə Ulu Öndər qonşu İran və Türkiyə rəhbərliyi ilə sıx siyasi əlaqələr quraraq, ağır blokada şəraitində yaşayan muxtar respublikanın iqtisadi problemlərinin qismən aradan qaldırılmasında onların imkanlarından istifadə etmişdir. O, Azərbaycan Prezidenti kimi, islam ölkələrindən, ilk olaraq, Türkiyə, İran və Səudiyyə Ərəbistanına səfər etmişdi.***

İslam dünyasının mühüm dövlətləri olan Türkiyə və İranla əlaqələr bütün dövrlərdə Azərbaycanın həm daxili həyatına, həm də beynəlxalq vəziyyətinə öz təsirini göstərmişdir. Ona görə də, Azərbaycan diplomatiyası hər iki dövlətlə əlaqələri elə qurmalı idi ki, bir tərəfdən, onların imkanlarından və bölgədə kəsişən maraqlarından Azərbaycan dövlətçiliyinin mühüm problemlərinin həllində istifadə etsin, digər tərəfdən, respublikanın inkişafını və maraqlarını bu iki dövlət arasındakı münasibətlərin təsirindən qorusun.

Heydər Əliyev Türkiyə Cümhuriyyəti ilə münasibətləri sırf etnikdini amillər kontekstindən çıxararaq, faydalı əməkdaşlıq, tərəfdaşlıq əsasında və qarşılıqlı maraqlar üzərində qurmağa nail oldu.

1993-cü ilin ortalarına qədər Azərbaycanın keçmiş iqtidarının tarazlaşdırılmamış xarici siyasəti nəticəsində, İranla münasibətlər kəskin siyasi-ideoloji qarşıdurma vəziyyətinə gəlib çıxmışdı. Prezident Heydər Əliyev İranla gərgin vəziyyətə çatdırılmış münasibətləri mehriban qonşuluq və əməkdaşlıq prinsipləri üzərində yenidən qurmaq, iki ölkə arasındakı əlaqələri bütün mümkün yollar və vasitələrlə yaxşılaşdırmaq üçün 1993-cü ilin ortalarından başlayaraq, gərgin və səmərəli iş apardı. Bunun nəticəsində, artıq 1993-cü ilin sonu - 1994-cü ilin əvvəlində bu qonşu dövlətlə əlaqələrdə dönüş yaratmaq mümkün oldu.

Heydər Əliyevin xarici siyasətində islam dünyasının böyük və kiçik dövlətləri ilə ikitərəfli və çoxtərəfli əlaqələr xüsusi bir istiqamət təşkil edir. Bu dövlətlərin bəziləri, xüsusən Pakistan, Səudiyyə Ərəbistanı və Misir Azərbaycan Respublikası ilə sıx tərəfdaşlıq münasibətləri yaratmış və onunla hərtərəfli əməkdaşlaq elir, digərləri (İndoneziya, İraq, Suriya, Birləşmiş Ərəb Əmirlikləri) ölkəmizlə diplomatik münasibətlər qurmuş və tərəfdaşlıq istiqamətində hərtərəfli iş aparırdı. Azərbaycan Respublikasının ən sıx əlaqələri olan və qarşılıqlı münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş ölkə Pakistandır. Pakistan ölkəmizin müstəqilliyini tanıyan (12 dekabr 1991-ci il), onunla diplomatik əlaqələr yaradan (9 iyun 1992-ci il) və Azərbaycan Respublikasında səfirliyini açan (12 mart 1993-cü il) ilk müsəlman dövlətlərindən biridir. Ümumiyyətlə, Azərbaycan Respublikasına ən yaxın və dost ölkələrdən biri olan Pakistan ölkəmizin mənafeyini bütün beynəlxalq təşkilatlarda ardıcıl müdafiə etmiş, Ermənistanın təcavüzünə birmənalı münasibət bildirmişdir. Xatırladaq ki, 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurasının Azərbaycan Respublikasına dair 822 nömrəli qətnaməsinin qəbul olunduğu iclasa Pakistan sədrlik etmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ilin dekabrında Kasablankada Pakistanın o vaxtkı baş naziri Bənazir Bhutto ilə görüşündən sonra ikitərəfli münasibətlər daha yüksək səviyyəyə çatmışdı. 1995-ci ilin oktyabrında Pakistan Prezidenti Sərdar Faruk Əhməd Xan Leqari Bakıda rəsmi səfərdə olmuş, 1996-cı ilin aprelində isə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dost ölkəyə səfər etmişdir. Səfərlər zamanı iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə, habelə, iqtisadi və ticarət əlaqələrini inkişaf etdirmək üçün bir neçə saziş imzalanmışdır. Pakistan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycan Respublikasının haqq işini müdafiə etdiyi kimi, Azərbaycan Respublikası da Kəşmir probleminin həlli ilə bağlı bu ölkənin atdığı addımları dəstəklədiyini dəfələrlə bəyan etmişdir. 1997-ci ildə Azərbaycan Respublikası Pakistan İslam Respublikasında öz səfirliyini açmış və rəsmi İslamabadla münasibətləri bir qədər də fəallaşdırmışdır.

> **Heydər Əliyev keçmiş SSRİ-nin türk-müsəlman respublikaları ilə AXC-Müsavat iqtidarı dövründə pozulmuş əlaqləri yenidən bərpa edərək, onlarla qarşılıqlı faydalı münasibətlər qurmağa nail olmuşdu. Bu dövlətlərlə əlaqələr həm də MDB, Türkdilli Dövlətlər Birliyi (TDB), İqtisadi Əməkdaslıq Təşkilatı (İƏT) çərçivəsində uğurla inkişaf edirdi**

Azərbaycan Respublikasının xarici siyasətində Yaxın və Orta Şərq ölkələri ilə münasibətlər də xüsusi əhəmiyyət kəsb edir. 1993-cü ildən başlayaraq, bu regionun həm müsəlman ölkələri - İran, Səudiyyə Ərəbistanı, Suriya, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya və başqaları ilə münasibətlər ikitərəfli və çoxtərəfli əməkdaşlıq çərçivəsində kifayət qədər geniş olmuşdur. Ərəb dünyasının və müsəlman aləminin ən nüfuzlu ölkələrindən biri Səudiyyə Ərəbistanı Krallığıdır.

Təsadüfi deyil ki, Prezident Heydər Əliyev müsəlman dövlətləri arasında üçüncü (Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasından sonra), ərəb dövlətləri arasında isə birinci səfərini, məhz bu ölkəyə etmişdi. 1994-cü ilin aprelində Azərbaycan Respublikası keçmiş Sovet İttifaqının müstəqillik qazanmış müsəlman dövlətləri arasında, birinci olaraq, krallıqda öz səfirliyini açmışdır. Həmin ilin iyulunda Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin bu ölkəyə səfəri ikitərəfli münasibətlərin inkişafında mühüm mərhələ oldu. Səudiyyə Ərəbistanı Ermənistanın hərbi təcavüzü ilə əlaqədar BMT, İKT, eləcə də, digər beynəlxalq və regional təşkilatlarda Azərbaycan Respublikasını daim müdafiə edir. Rəsmi Ər-Riyad Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləyir və dəfələrlə bildirmişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunmayınca, Ermənistan Respublikası ilə heç bir siyasi, iqtisadi və mədəni əlaqə qurmayacaqdır.

Heydər Əliyev keçmiş SSRİ-nin türk-müsəlman respublikaları ilə AXC-Müsavat iqtidarı dövründə pozulmuş əlaqləri yenidən bərpa edərək, onlarla qarşılıqlı faydalı münasibətlər qurmağa nail olmuşdu. Bu dövlətlərlə əlaqələr həm də MDB, Türkdilli Dövlətlər Birliyi (TDB), İqtisadi Əməkdaslıq Təşkilatı (İƏT) çərçivəsində uğurla inkişaf edirdi. Azərbaycanın islam ölkələri ilə iqtisadi-ticarət, humanitar və mədəni əlaqələri də inkişaf edirdi. Heydər Əliyevin islam ölkələrinə, həmin ölkələrin dövlət başçılarının Azərbaycana qarşılıqlı səfərləri, müxtəlif beynəlxalq tədbirlərdə çoxsaylı ikitərəfli və çoxtərəfli görüşlər, islam ölkələrinin təmsil olunduğu təşkilatlarda məqsədyönlü fəaliyyəti Azərbaycanın islam dünyasında mövqeyinin daha da möhkəmlənməsində və nüfuzunun artmasında mühüm rol oynayırdı. Nəticədə, bir dövlət kimi, müsəlman dünyasına mənsub olan Azərbaycan islam aləmində öz görkəmli yerini tutmuşdu.

Heydər Əliyev sivilizasiyaların, mədəniyyətlərin və dinlərin dialoqunda Azərbaycanın tutduğu yerin unikallığına diqqəti cəlb edərək, hər yerdə Azərbaycanda tarixən təşəkkül tapmış milli, mədəni və dini tolerantlığı dünya birliyi üçün mühüm nümunə kimi gətirir və iftixarla qeyd edirdi ki, Azərbaycan çoxmillətli dövlətdir. Onun bütün vətəndaşları milli mənsubiyyətindən, dini etiqadından və siyasi əqidəsindən asılı olmayaraq, bərabər hüquqlara malikdirlər. Heydər Əliyev Azərbaycanda mövcud olan milli-mədəni tolerantlıq ənənəsinin, eyni zamanda, bəşəriyyətin inkişafı üçün örnək ola biləcəyinə daxili inamını ifadə edirdi.

Azərbaycanın Şərqlə Qərbin mədəni əlaqələrinin qovuşduğu sərhəd ölkəsi kimi dünyadakı özünəməxsus mövqeyinə diqqət çəkən Heydər Əliyev dövlətimizin dinlərarası dialoqun inkişafında roluna yüksək qiymət verirdi. Bu baxımdan, Onun Böyük İpək Yolunun bərpa edilməsi, TRASEKA proqramının gerçəkləşdirilməsi üçün beynəlxalq arenada atdığı addımlar gələcəkdə Qafqazdan, Xəzər dənizindən keçməklə, Avropa ilə Asiyanı birləşdirəcək nəqliyyat dəhlizinin yaradılması həm ölkələr arasında iqtisadi-ticarət əlaqələrinin, həm də mədəni əməkdaşlığın genişlənməsinə müsbət töhfələr verəcəkdir. Hazırda bu sahədə həyata keçirilən qlobal layihələr Heydər Əliyev ideyalarının bəşəriliyini və həyatiliyini bir daha sübut edir. Bu gün ölkə Prezidenti İlham Əliyevin dəstəyi ilə həyata keçirilən beynəlxalq mədəni tədbirlər, Heydər Əliyev Fondunun, fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü sayəsində Azərbaycanda və bir sıra xarici ölkələrdə baş tutmuş digər mədəni forumlar, mədəniyyətlər və dinlər arasında dialoq prosesinin daha da dərinləşməsinə, genişlənməsinə kömək etməklə yanaşı, ölkəmizin bu prosesdə öz tarixi-coğrafi missiyasını daha səmərəli şəkildə həyata keçirməsinə, dialoq mədəniyyətinin şüurlarda kök salmasına, R.Mehdiyevin sözləri ilə desək, sivilizasiyaların dialoq və təmas nöqtəsinə çevrilməsinə gətirib çıxarır. Hazırda dinlərarası dialoq çərçivəsində Azərbaycanda müxtəlif beynəlxalq humanitar forum və tədbirlərin keçirilməsi ölkəmizin bu missiyanı uğurla daşıdığını göstərir.

Heydər Əliyev Azərbaycanın xarici siyasət strategiyasını işləyib-hazırlayarkən, ölkəmizin unikal geosiyasi şəraitini, Şərqlə Qərb arasındakı əlverişli mövqeyimizi nəzərə alaraq, müxtəlif sivilizasiyalara və dinlərə məxsus ölkələr arasında iqtisadi, siyasi və mədəni körpü rolunun qorunmasına xüsusi diqqət yetirirdi. Yeni XXI əsr və III minillik münasibətilə Azərbaycan xalqına müraciətində, o, Azərbaycanın öz coğrafi vəziyyətinə görə, Qərb sivilizasiyası ilə Şərq sivilizasiyasının - həm coğrafi, həm də məzmun və mənəvi nöqteyi-nəzərdən, bir ölkə olduğunu vurğulayaraq, xalqımızın bu tarixi missiyasını yüksək qiymətləndirir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# “Nar”ın son yenilikləri “BakuTel-2019” sərgisində!

“Nar” ən son yeniliklərin və texnoloji nailiyyətlərin nümayiş olunduğu 25-ci “BakuTel-2019” Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisində iştirak edəcək. Dekabrın 3-6-da keçiriləcək sərgidə yenilənmiş “Nar” stendinə yaxınlaşan ziyarətçilər həm mobil operatorun məhsulları ilə tanış ola biləcək, həm müxtəlif hədiyyələr qazanacaq, həm də əyləncəli müsabiqələrdə iştirak edə biləcəklər.

Qeyd edək ki, dörd gün davam edəcək sərgidə “Nar” hesabı daha asan idarə etmək, nömrəni hər zaman nəzarət altında saxlamaq, bütün xidmət və məhsullardan xəbərdar olmaq imkanı verən “Nar+” tətbiqini, “WhatsApp”-da pulsuz yazışma, sərfəli zəng və internet təklifi ilə səyahətsevərlərin istirahətini daha zövqedici edən “Rominq” paketlərini, həm internetdən, həm də sosial şəbəkələrdən çox istifadə edənlər üçün ikiqat internetdən yararlanmaq imkanı verən “Cavan-Nar” tarifini abunəçilərinə təqdim edəcək. Ziyarətçilər eyni zamanda virtual reallıq oyunu vasitəsilə “Nar” şəbəkəsini test və 4G sürətini hiss edə biləcəklər.

Bundan başqa, mobil operatorun stendində əyləncəli yarışlar, müsabiqələr, maraqlı oyunlar da keçiriləcək. Sərginin keçiriləcəyi 4 gün ərzində “Nar” stendinə yaxınlaşan insanlar müxtəlif hədiyyələr əldə etməklə yanaşı, müsabiqədə iştirak edib müasir smartfon qazana biləcəklər.

Mobil operator hər kəsi 3-6 dekabr tarixlərində Bakı Ekspo Mərkəzində keçiriləcək 25-ci “BakuTel-2019” Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisindəki “Nar” stendinə dəvət edir.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 97,6%-ni əhatə edir və 8600-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Bakıda Çarli Çaplinin yaradıcılığına həsr edilmiş tədbir keçiriləcək




Noyabrın 28-də Nizami Kino Mərkəzində dünya kinosunun dahi sənətkarı Çarli Çaplinin 130 illiyinə həsr olunmuş tədbir keçiriləcək. Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Əməkdar incəsənət xadimi Ayaz Salayevin aparıcılığı ilə reallaşacaq gecədə tamaşaçılar dünya şöhrətli aktyorun haqqında son dərəcə maraqlı məlumatlar əldə edəcək, onun bəstələdiyi musiqini eşidəcəklər. Gecədə hər kəsin iştirak etmək imkanı olacaq.

# Gömrükçülər marixuana aşkarladı

Gömrükçülər marixuana aşkarlayıblar. Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, Qərb Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinin məlumatı əsasında Gürcüstandan “Volkswagen Golf” markalı avtomobil ilə gələn Azərbaycan vətəndaşı “Mazımçay” gömrük postunda saxlanılıb. Kinoloji xidmət itinin tətbiqi ilə keçirilən gömrük baxışı zamanı it avtomobilin sürücüsünə reaksiya verib. Şəxsi yoxlamadan əvvəl şifahi sorğu-sual olunan vətəndaş üzərində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirib. Lakin yoxlama zamanı onun əynindəki gödəkçənin cibində kağıza bükülü, ümumi çəkisi 1 qram olan marixuana bitkisi aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.


## ELAN

ADPU-nun TİM-1905 qrup tələbəsi Səfərova Naidə Gülbala qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Riyaziyyat-informatika ixtisası üzrə II kurs tələbəsi Abbaslı Ülkər Oqtay qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



səs

Son səhifə 27 noyabr


# BSU-da Sergey Yeseninə həsr olunmuş tədbir keçirilib

***Bakı Slavyan Universitetinin Filologiya və xarici dil müəllimliyi fakültəsinin Rus ədəbiyyatı tarixi kafedrasının təşkilatçılığı ilə böyük rus şairi Sergey Yeseninə həsr olunmuş “Sergey Yeseninin Moskva həyatı” mövzusunda tədbir keçirilib.***




Tədbiri giriş sözü ilə açan Filologiya və xarici dil müəllimliyi fakültəsinin dekanı, dosent Gültəkin Əliyeva tədbirin tələbələrini Sergey Yeseninin haqqında məlumatlandırılmasında intellektual səviyyələrinin yüksəlməsində, tədqiqatçılıq fəaliyyətinin inkişaf etdirilməsində əhəmiyyətini vurğulayıb. G.Əliyeva bildirib ki, bu istiqamətdə silsilə tədbirlərin keçirilməsi fakültənin tədbirlər planına uyğun olaraq davam etdiriləcəkdir. Sonra Sergey Yeseninin Moskvadakı ev muzeyinin əməkdaşları Alla Sergeyeva və Yelizaveta Terentevanın muzey haqqında məruzələri dinlənilib. Söhbət zamanı muzeyə virtual ekskurs edilib, muzeydəki eksponatlar barədə iştirakçılara məlumat verilib.




Tədbirdə tələbələr tərəfindən şairin şeirlərindən parçalar səsləndirilib.

BSU-nun “Slovar yazıka Yesenina” adlı yeddi cildlik kitabının müəllifi Qalina Şipulina Sergey Yeseninin Bakı həyatından danışıb, şairin yaradıcılığı haqqında ətraflı məlumat verib.

Tədbir fakültənin professor-müəllim heyəti və tələbələrinin böyük marağına səbəb olub.

**ZÜMRÜD**

# Şəmkirdə və paytaxtda soyğunçuluq edən şəxslər saxlanılıb

Şəmkirdə və paytaxtda soyğunçuluq edən şəxslər saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 25-də Şəmkir rayonunun Sarıtəpə kənd sakini D.İbrahimova zor tətbiq edərək soyğunçuluq yolu ilə 350 manat pulunu almaqda şübhəli bilinən şəhər sakini X.Nəsibov rayon polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılıb.

Paytaxtda S.İbadovaya zor tətbiq edərək soyğunçuluq yolu ilə içərisində 2 ədəd mobil telefon və planşet olan çantanı almaqda şübhəli bilinən Bakı şəhər sakini R.Ağayev isə Nizami Rayon Polis İdarəsinin 23-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində yaxalanıb. Hər iki faktla bağlı araşdırma aparılır.

# DİN: Borclu şəxs qismində axtarılan 13 nəfər saxlanılıb



Ötən gün ərzində törədilmiş 16 cinayətin üstü respublikanın daxili işlər orqanları tərəfindən “isti izlər”lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış 4 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 31 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 23 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş 4 ağır yol-nəqliyyat hadisəsi nəticəsində 5 nəfər ölüb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 5 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 19 nəfər saxlanılıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**